## DAVOSDA “PROCTER AND GAMBLE EUROPE” ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞ

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda “Procter and Gamble Europe” şirkətinin prezidenti Loik Tassel ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Loik Tassel son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatların müsbət nəticələr verdiyini vurğulayaraq qeyd edib ki, ölkədə yaradılan biznes mühiti və investorlar üçün şərait başqa şirkətlər kimi, “Procter and Gamble” şirkətini də Azərbaycanda öz fəaliyyətini...



Bax səh. 2

## PREZİDENT İLHAM ƏLİYEVİN “THE BOSTON CONSULTING GROUP” ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞÜ OLUB

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda “The Boston Consulting Group” şirkətinin prezidenti və baş direktoru Riç Lesser ilə görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Riç Lesser “The Boston Consulting Group”un rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində müxtəlif həll variantları işləyib hazırlayan qlobal şirkətlərdən biri olduğunu vurğulayaraq...



Bax səh. 2




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 24 yanvar 2019-cu il, cümə axşamı / № 015 (5390). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev İsveçrəyə işgüzar səfər edib



*Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrə Prezidenti Ueli Maurer ilə görüşü olub*

### Prezident İlham Əliyev “Lazard Freres” şirkətinin baş icraçı direktoru ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda “Lazard Freres” şirkətinin baş icraçı direktoru Metyu Piqas ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Metyu Piqas şirkətin 2000-ci ildən Azərbaycanda müxtəlif layihələrin maliyyələşməsi və investisiya məsələlərinin həlli üzrə məsləhət xidmətləri göstərdiklərini vurğulayıb. O, 2017-ci ildə şirkətin Azərbaycan Beynəlxalq Bankının borclarının...

Bax səh. 2

### “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 76-cı kitabı çapdan çıxıb



“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 76-cı kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin...

Bax səh. 3

### Müasir infrastrukturun yaradılması Azərbaycan hökumətinin əsas məqsədlərindən biridir

Azərbaycan özünün geniş imkanlarını, müsbət reallıqlarını dünyaya təqdim etmək, eləcə də qabaqcıl beynəlxalq təcrübədən bəhrələnmək üçün müxtəlif əməkdaşlıq platformalarından maksimum səmərəli şəkildə istifadə etməyə böyük önəm verir. Bu baxımdan beynəlxalq nüfuzu kifayət qədər yüksək olan Davos Dünya İqtisadi Forumu ilə respublikamız arasında əməkdaşlıq əlaqələrinin genişlənməsi təqdirəlayiq haldır...

Bax səh. 4

### Ukrayna və Belarus mətbuatı Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunda iştirakına geniş yer ayırıb




Ukrayna və Belarus mətbuatı Azərbaycan Prezidenti İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunda iştirakını geniş işıqlandırıb. AZƏRTAC xəbər verir ki, Ukraynanın UKRİNFORM dövlət agentliyi...

Bax səh. 3



### HİKMƏT HACIYEV: AZƏRBAYCAN PREZİDENTİ İLƏ ERMƏNİSTAN BAŞ NAZİRİNİN DAVOSDAKI GÖRÜŞÜ DÜŞƏNBƏ VƏ SANKT-PETERBURQDAKI GÖRÜŞLƏRİN DAVAMI KİMİ QİYMƏTLƏNDİRİLƏ BİLƏR

...Bu görüş Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin təşəbbüsü ilə keçirilib...

Bax səh. 5

### AZƏRBAYCANIN REGİONLARINDA YOL İNFRASTRUKTURUNUN YENİLƏNMƏSİ İSTİQAMƏTİNDƏ TƏDBİRLƏR MÜVƏFFƏQİYYƏTLƏ DAVAM ETDİRİLİR

Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bütün sahələrdə möhtəşəm nailiyyətlər qazanılmasını təmin edir. Ölkəmizdə infrastruktur quruculuğu da geniş vüsət alıb, bu istiqamətdə səmərəli tədbirlər həyata keçirilib, mühüm nəticələr əldə olunub. Bu baxımdan, yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı irimiqyaslı layihələrin uğurla icra olunması da böyük əhəmiyyətə malikdir. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində ölkə miqyasında bəhs olunan istiqamətlərdə qarşıya qoyulan vəzifələr də müvəffəqiyyətlə icra edilib. Qeyd etmək lazımdır ki, yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə əlaqədar tədbirlər davamlı xarakter daşıyır...

Bax səh. 8



### SƏMƏD SEYİDOV: ÖLKƏLƏRLƏ QARŞIDURMA DEYİL, DİALOQ YARATMAQ LAZIMDIR

Çox qəribədir, imzalamadığımız bir sənəddən imtina etməyimiz istənilir. AZƏRTAC xəbər verir ki, bu fikri AŞPA-nın “Şəriət qanununun İnsan Hüquqları üzrə Avropa Konvensiyasına uyğunluğu: Konvensiyaya qoşulan ölkələr Qahirə Bəyannaməsinin iştirakçısı ola bilərmi?” adlı məruzənin müzakirələri zamanı...

Bax səh. 5

### Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin yaz sessiyasında ilk iclası keçirilib

Yanvarın 23-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin yaz sessiyasında ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitənin sədri Əli Hüseynli əvvəlcə 2018-ci ilin payız sessiyası dövründə görülən işlər barədə məlumat verib. Bildirilib ki, hesabat dövründə komitənin 25 iclası keçirilib və 169 məsələ müzakirə olunub. Komitənin payız sessiyası dövründə fəaliyyəti qənaətbəxş qiymətləndirilib...

Bax səh. 5

### Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır



...Son illər ərzində ölkəmizdə bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, Azərbaycan iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Məhz ötən dövrdə aparılan islahatların nəticəsidir ki, Azərbaycanda yüksək rəqabət qabiliyyətinə...

Bax səh. 6

### *Sevinc Fətəliyeva:* Hər bir KİV yaydığı xəbərə görə məsuliyyət daşıdığını unutmamalıdır



Bu gün kütləvi informasiya vasitələrinin münasibətlərin, maraqların və siyasi mövqenin formalaşmasındakı rolu böyükdür. Son onilliklər ərzində...

Bax səh. 5

### *Sahibə Qafarova:* Azərbaycanda 2019-cu ilin “Nəsimi ili” elan olunması humanizm ideyalarının yaşadılmasına bir çağırışdır



Azərbaycan öz parlaq mədəniyyəti, zəngin mədəni, mənəvi dəyərləri ilə bəşəriyyətin mədəni irsinə böyük töhfələr verib...

Bax səh. 6

### *Sədaqət Vəliyeva:* Böyük enerji şirkətlərinin Azərbaycana sərmayə yatırması ölkəmizdəki siyasi sabitlik və təhlükəsizlik amili ilə bağlıdır



1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyevin dünyanın...

Bax səh. 5

### Azərbaycanlı deputat AŞPA-nın sessiyasında internet idarəçiliyinin əhəmiyyətindən danışıb



“İnternet idarəçiliyi və insan hüquqları” məruzəsində internetin bir sıra insan hüquqlarının reallaşmasında, bərabərsizliyə qarşı mübarizədə...

Bax səh. 5

# Azərbaycan Prezidenti İlham Əliyev İsveçrəyə işgüzar səfər edib

## Davosda "Procter and Gamble Europe" şirkətinin prezidenti ilə görüş



Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Loik Tassel son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatların müsbət nəticələr verdiyini vurğulayaraq qeyd edib ki, ölkədə yaradılan biznes mühiti və investorlar üçün şərait başqa şirkətlər kimi, "Procter and Gamble" şirkətini də Azərbaycanda öz fəaliyyətini genişləndirməyə həvəsləndirir.

"Procter and Gamble" şirkətinin Azərbaycandakı fəaliyyətinə toxunan Loik Tassel bildirib ki, şirkət təkcə istehlak mallarının satışı ilə məşğul deyil, eyni zamanda, ölkədə reklam bazarının inkişafına əhəmiyyətli töhfə verir. Azərbaycanın televiziya məkanında ən böyük reklam sifarişçisi olan şirkət müxtəlif sosial layihələrə, idman yarışlarına sponsorluq və digər dəstək tədbirləri həyata keçirməklə sosial məsuliyyət missiyasını da yerinə yetirir.

Loik Tassel bildirib ki, "Procter and Gamble" şirkəti yaranmış biznes mühitindən istifadə edərək regionda fəaliyyətini genişləndirmək istəyir. Bu məqsədlə Bakıda fəaliyyətini böyütməklə Orta Asiya və digər region ölkələrinə öz məhsullarının satışını artırmaq marağındadır. Azərbaycandakı mövcud biznes mühiti bu şirkətin regional mərkəz kimi Bakını seçməsinə səbəb olub.

Prezident İlham Əliyev Azərbaycanda yaradılan biznes mühiti, gömrük, vergi və digər sahələrdə həyata keçirilən islahatlardan danışıb. Dövlətimizin başçısı şirkətin Azərbaycandakı fəaliyyətinin genişləndirilməsi barədə qərarların düzgün olduğunu vurğulayıb. Prezident İlham Əliyev Azərbaycan dövlətinin investorlara, sahibkarlara bundan sonra da dəstək verəcəyini bildirib.

## Prezident İlham Əliyevin "The Boston Consulting Group" şirkətinin prezidenti ilə görüşü olub



Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "The Boston Consulting Group" şirkətinin prezidenti və baş direktoru Riç Lesser ilə görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Riç Lesser "The Boston Consulting Group"un rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində müxtəlif həll variantları işləyib hazırlayan qlobal şirkətlərdən biri olduğunu vurğulayaraq, Azərbaycan ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, Azərbaycanda həyata keçirilən islahatları, yaradılan biznes mühitini və sürətli inkişafı dəstəklədiklərini bildirib. Riç Lesser həm dövlət qurumlarının, həm də özəl şirkətlərin fəaliyyətində, səhiyyə, icbari tibbi sığorta və digər sahələrdə daha yüksək idarəçiliyi təmin edəcək rəqəmsal həll variantlarına malik olduqlarını deyib. Qeyd edilib ki, Azərbaycanda bu həll variantlarının tətbiqi həm yeni iş yerlərinin yaradılmasına səbəb olacaq, həm də Prezident İlham Əliyevin həyata keçirdiyi idarəetmə sistemlərinin daha da təkmilləşdirilməsinə mühüm töhfə verəcək.

Prezident İlham Əliyev "The Boston Consulting Group" şirkətinin Azərbaycandakı fəaliyyətindən məmnunluğunu bildirib. Dövlətimizin başçısı Azərbaycanın müxtəlif dövlət və özəl şirkətlər ilə əməkdaşlığı, biznes mühitinə dəstəyi bundan sonra da davam etdirəcəyini bildirib.

## Prezident İlham Əliyevin "VTB-Bank"ın prezidenti ilə görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 23-də Davosda "VTB-Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostin ilə görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə "VTB-Bank" ilə uğurlu əməkdaşlığın həyata keçirildiyi, bankın Azərbaycanda səmərəli fəaliyyət göstərdiyi qeyd olunub.

Söhbət zamanı Azərbaycanda bank sektorunun inkişafı, bu sahədə özəl sektorun fəaliyyəti üçün daha əlverişli mühitin yaradılması istiqamətində görülən tədbirlərin əhəmiyyəti vurğulanıb, əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## Prezident İlham Əliyev "Lazard Freres" şirkətinin baş icraçı direktoru ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda "Lazard Freres" şirkətinin baş icraçı direktoru Metyu Piqas ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Metyu Piqas şirkətin 2000-ci ildən Azərbaycanda müxtəlif layihələrin maliyyələşməsi və investisiya məsələlərinin həlli üzrə məsləhət xidmətləri göstərdiklərini vurğulayıb. O, 2017-ci ildə şirkətin Azərbaycan Beynəlxalq Bankının borclarının şaxələndirilməsində iştirak etdiyini və bankın maliyyə məsləhətçisi olduğunu bildirib. Azərbaycan Beynəlxalq Bankının restrukturizasiyasının uğurla başa çatdığını və bunun beynəlxalq təşkilatlar tərəfindən də qəbul olunduğunu xüsusi vurğulayan Metyu Piqas respublikamızda yaradılan biznes mühitinin, sahibkarlara göstərilən dəstəyin və ölkəmizin iqtisadi uğurlarının "Doing Business 2019" hesabatında əks olunmasının Azərbaycanda investisiya məsələlərinə dair konfransların və digər tədbirlərin keçirilməsi üçün əlverişli şərait yaratdığını bildirib. Qeyd olunub ki, qlobal şirkətlər və investorlar Azərbaycanda belə böyük tədbirlərin keçirilməsində çox maraqlıdır. Bu, həm də Azərbaycan Prezidenti tərəfindən xarici investorlara göstərilən dəstəyin, sərmayələrin cəlb olunması, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətlərində qəbul edilən qərarların və görülən tədbirlərin dəstəklənməsi baxımından çox əhəmiyyətlidir. Metyu Piqas maliyyə məsləhətçisi kimi öz xidmətlərini təklif edərək, Azərbaycanda bu sahədə fəal əməkdaşlıq üçün böyük potensialın olduğunu deyib.

Prezident İlham Əliyev "Lazard Freres" şirkətinin fəaliyyətindən razılığını bildirib. Dövlətimizin başçısı şirkət ilə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

## "Suez Group" Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlıdır



Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "Suez Group" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Gebali ilə görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Erik Gebali "Suez Group"un Azərbaycanda su infrastrukturunun inkişaf etdirilməsi sahəsində fəaliyyətindən və ölkəmizlə əməkdaşlığın uğurlu olmasından danışıb. O, Azərbaycan ilə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduqlarını bildirib.

Prezident İlham Əliyev "Suez Group" ilə əməkdaşlıq çərçivəsində görülən işlərin əhəmiyyətini vurğulayıb, şirkətlə əməkdaşlığın ölkəmizdə su infrastrukturunun daha da təkmilləşdirilməsinə böyük töhfə verdiyini qeyd edib.

## Prezident İlham Əliyev "Equinor" şirkətinin baş icraçı direktoru ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda "Equinor" (keçmiş "Statoil") şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə "Azəri-Çıraq-Günəşli" yataqlar bloku ilə bağlı SOCAR-la "Equinor" şirkəti arasında əməkdaşlıq məsələləri müzakirə olunub.

Dövlətimizin başçısı "Equinor"un Azərbaycanda fəaliyyətini davam etdirməsindən məmnunluğunu bildirib.

Söhbət zamanı "Qarabağ", "Əşrəfi", "Dan ulduzu" perspektiv layihələri və "Dədə Qorqud" qurğusunun təmiri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Azərbaycan Prezidenti İlham Əliyev İsveçrəyə işgüzar səfər edib

## Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrə Prezidenti Ueli Maurer ilə görüşü olub

Yanvarın 23-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurerin görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Prezident Ueli Maurer deyib ki, İsveçrə iş adamları Azərbaycanda biznes mühiti üçün yaradılan şəraitdən çox razıdırlar. Onlar Azərbaycanda iqtisadi inkişaf və biznes imkanlarının genişləndirilməsi üçün əlverişli şəraitin yaradıldığını bildirirlər. Azərbaycan ilə İsveçrə arasında hava əlaqəsinin açılması da əməkdaşlığın genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev Azərbaycanda infrastruktur sahəsində görülən işlərdən danışıb, respublikamızın beynəlxalq daşımalarda çox mühüm tranzit ölkəyə çevrildiyini deyib. Dövlətimizin başçısı dəmir yolu ilə yüklərin artıq Asiyadan Avropaya Azərbaycan ərazisindən daşınmasına başlandığını qeyd edib. Prezident İlham Əliyev İsveçrədə istehsal olunan qatarların Azərbaycanda dəmir yolunun yenilənməsinə və inkişafına töhfə verdiyini vurğulayıb, bu sahədə əməkdaşlığın uğurla davam etdiyini bildirib.

Görüşdə SOCAR-ın İsveçrəyə investisiya qoymasının əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub.

Prezident İlham Əliyev bildirib ki, biz Azərbaycanın iqtisadi inkişafına daha çox İsveçrə şirkətinin investor qismində cəlb olunmasında maraqlıyıq. Dövlətimizin başçısı İsveçrə şirkətlərinin Azərbaycan ilə fəal əməkdaşlığı gələcəkdə də davam etdirəcəklərinə əminliyini bildirib.




Söhbət zamanı qarşılıqlı ticarətin genişləndirilməsinin vacibliyi qeyd olunub. Azərbaycanda alternativ enerjinin istehsalında İsveçrə şirkətlərinin iştirakı məsələlərinə toxunulub.

Prezident İlham Əliyev Azərbaycanda bu sahədə də geniş işlərin aparıldığını deyib və bu baxımdan İsveçrənin təcrübəsinin ölkəmizdə öyrənilməsinin əhəmiyyətini qeyd edib. Dövlətimizin başçısı Azərbaycanda biznes mühiti üçün yaradılan şəraitin ölkəmizdəki inkişaf proseslərinin beynəlxalq təşkilatlar tərəfindən qeyd olunduğunu və beynəlxalq reytinqlərdə əksini tapdığını vurğulayıb.

Görüşdə Azərbaycanda "Holcim" şirkəti tərəfindən sement zavodunun tikintisinin vaxtilə iqtisadi əməkdaşlığın əsasının qoyulmasında böyük rol oynadığı qeyd olunub. Dövlətimizin başçısı sement zavodunun Azərbaycanın iqtisadi inkişafında rolunu qeyd edib.

Prezident Ueli Maurer bildirib ki, Azərbaycan ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün İsveçrə tərəfi də konkret addımların atılmasında maraqlıdır.

* * *

Daha sonra Prezident İlham Əliyev Dünya İqtisadi Forumu çərçivəsində Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına səfəri yanvarın 23-də başa çatıb.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 76-cı kitabı çapdan çıxıb




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 76-cı kitabı çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2016-cı ilin sentyabrından oktyabr ayınadək olan dövrü əhatə edir.

Həmin dövrdə Azərbaycanın yüksək səviyyədə təmsil olunduğu mühüm beynəlxalq tədbirlərdən biri İstanbulda keçirilən 23-cü Dünya Enerji Konqresi olub. Prezident İlham Əliyevin bununla əlaqədar Türkiyəyə işgüzar səfəri zamanı keçirdiyi görüşlər barədə informasiyalar, Azərbaycan və Türkiyə prezidentlərinin "Space" televiziyasının müxbirinin sualına cavablarının və dövlətimizin başçısının konqresdə çıxışının mətnləri kitabda yer alıb. Dövlətimizin başçısı çıxışında deyib: **"Enerji təhlükəsizliyi məsələləri gələcəkdə də öz həllini tapmalıdır. Təbii qaynaqlarla zəngin olan ölkələr, tranzit ölkələr, istehlakçı ölkələr burada bir komanda kimi fəaliyyət göstərməlidir, heç bir əsassız rəqabətə yol verilməməlidir, sağlam rəqabət aparılmalıdır. Neft-qaz hasil edən və ixrac edən ölkələr arasında daha çox anlaşma olmalıdır. Azərbaycan hər zaman bunun tərəfdarı olub ki, burada biz xalqlarımızın, ölkələrimizin maraqlarını təmin edə bilək. Bizim enerji siyasətimiz imkan verdi ki, biz özümüz də xarici ölkələrə sərmayə qoyaq".**

Kitaba Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Roma Papası Fransisk ilə görüşünün materialları, Venesuela Bolivar Respublikası və Xorvatiya Respublikası prezidentləri ilə apardığı danışıqlara dair informasiyalar, dövlət başçılarının mətbuata bəyanatlarının, Prezident İlham Əliyevin Azərbaycan-Xorvatiya Biznes Forumunda çıxışının mətnləri daxil edilib. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək olmağa çağırıb.

Çoxcildliyin 76-cı kitabında, həmçinin Prezident İlham Əliyevin Rusiya, Belarus, Pakistan, Türkiyə, Bolqarıstan, Tacikistan, ABŞ, Rumıniya və digər dövlətlərin, AŞPA, Afrika İttifaqı, ATƏT və Avropa İttifaqının ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, Bakının ev sahibliyi etdiyi beynəlxalq tədbirlərin yüksəksəviyyəli iştirakçılarını qəbul etməsinə dair materiallar yer alıb.

Oxucu bu cilddə dövlətimizin başçısının Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda nitqinin, Rio-de-Janeyroda keçirilən XV Yay Paralimpiya Oyunlarında iştirak etmiş idmançılarla görüşündə çıxışının, V Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində söylədiyi nitqin, "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinə verdiyi geniş müsahibəsinin mətnləri ilə də tanış ola bilər.

Bu kitabda Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqinin mətni, Mingəçevir və Sumqayıt şəhərlərinə, Qazax və Ağstafa rayonlarına səfərləri zamanı iqtisadi və sosial infrastruktur obyektlərinin açılışlarında iştirakı, ictimaiyyət nümayəndələri ilə görüşləri haqqında materiallar da verilib.

Nəşrə ölkə rəhbərinin "ADEX-2016" II Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin, VII Azərbaycan-Rusiya Regionlararası Forumunun iştirakçılarına müraciətlərinin mətnləri, habelə müxtəlif məktubları daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 76-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Ukrayna və Belarus mətbuatı Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunda iştirakına geniş yer ayırıb




Ukrayna və Belarus mətbuatı Azərbaycan Prezidenti İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunda iştirakını geniş işıqlandırıb. AZƏRTAC xəbər verir ki, Ukraynanın UKRİNFORM dövlət agentliyi "Davosda "Bir kəmər, bir yol" təşəbbüsü müzakirə edilib" sərlövhəli yazıda Prezident İlham Əliyevin çıxışına geniş yer verib. Yazıda vurğulanır ki, Azərbaycan Prezidenti layihəyə tam dəstək verdiyini bəyan edib. **"Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvüdür. Biz əlbəttə ki, Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyirik. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır",** - deyə dövlətimizin başçısının çıxışından sitat gətirilib.

Belarusun BELTA dövlət agentliyi də Prezident İlham Əliyevin Davosda "Bir kəmər, bir yol" təşəbbüsünə dair keçirilən konfransda iştirakına geniş yer ayırıb. "Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvüdür" sərlövhəli məqalədə Prezident İlham Əliyevin konfransdakı çıxışından fikirlər əksini tapıb: **"Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir. Bunun üçün dəmir yolu sistemlərimizin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Avropa və Asiya arasında çatışmayan bağlantının yaradılması ilə bizi Türkiyə və Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun inşası yollarımızdan istifadə etmək istəyənlərə yaxşı şərait yaradır. Biz yaxşı tarif siyasətini yaratmaq üçün vəsait sərf edirik. Yükdaşımaların həcmi də artır. Yalnız Şimal-Cənub dəhlizi vasitəsilə keçən il ondan əvvəlki illə müqayisədə on dəfə çox yük daşınıb".**



# Müasir infrastrukturun yaradılması Azərbaycan hökumətinin əsas məqsədlərindən biridir

***Prezident İlham Əliyev:*** *Biz coğrafi vəziyyətimizdən faydalanaraq əsasən infrastruktura, yəni daxili infrastruktura və Azərbaycanın beynəlxalq hablardan birinə çevrilməsinə imkan verəcək infrastruktura sərmayə yatırmaqla doğru iş görmüşük*

*Azərbaycan özünün geniş imkanlarını, müsbət reallıqlarını dünyaya təqdim etmək, eləcə də qabaqcıl beynəlxalq təcrübədən bəhrələnmək üçün müxtəlif əməkdaşlıq platformalarından maksimum səmərəli şəkildə istifadə etməyə böyük önəm verir. Bu baxımdan beynəlxalq nüfuzu kifayət qədər yüksək olan Davos Dünya İqtisadi Forumu ilə respublikamız arasında əməkdaşlıq əlaqələrinin genişlənməsi təqdirəlayiq haldır. Ölkəmiz qurumun tədbirlərində fəal şəkildə iştirak edir. Elə bu günlərdə Davosda Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasında səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev burada ayrı-ayrı ölkələrin yüksək səviyyəli rəsmiləri, transmilli şirkətlərin rəhbərləri, eləcə də Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə məhsuldar görüşlər keçirib. Azərbaycanın dövlət başçısı Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibə verib, həmçinin Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiyada iştirak edib. Prezident İlham Əliyev keçirdiyi görüşlərdə, qatıldığı tətbirlərdə və mətbuata müsahibəsində dinamik inkişaf kursuna malik olan Azərbaycanın uğurlarını, müsbət mənzərəsini, ələlxüsus da respublikamızda infrastruktur quruculuğuna böyük diqqət göstərildiyini, ölkəmizin real sektora investisiya yatırmaq strategiyasını dolğun şəkildə təqdim edib.*



## AZƏRBAYCAN MÜASİR İNFRASTRUKTUR YARADILMASINA BÖYÜKHƏCMLİ SƏRMAYƏLƏR YÖNƏLDİR

Son 15 ildə bütün ölkə üzrə intensiv şəkildə həyata keçirilən yüksəksəviyyəli infrastruktur quruculuğu Azərbaycanın dinamik iqtisadi inkişafını və insanların həyat səviyyəsinin yüksəlməsini şərtləndirən çox mühüm amil qismində çıxış edir. Bəhs olunan dövrdə paytaxt Bakıda və bölgələrdə reallaşdırılan çoxsaylı layihələr sayəsində respublikamız infrastruktur təminatı baxımından dünyanın qabaqcıl ölkələri səviyyəsinə yüksəlib. Dövlət əsaslı vəsait qoyuluşu hesabına yaradılan müxtəlif təyinatlı infrastruktur obyektləri bundan sonra onilliklər boyu Azərbaycan xalqına və dövlətinə xidmət göstərəcək.

Əlamətdar haldır ki, respublikamızda infrastruktur quruculuğu Prezident İlham Əliyevin siyasi iradəsi əsasında davamlı səciyyə daşıyır. Belə ki, bu sahəyə yönəldilən dövlət əsaslı vəsait qoyuluşu ilbəil artır ki, bunun da sayəsində hər il ölkə miqyasında yeni infrastruktur layihələrinin uğurlu icrası təmin olunur. Prezident İlham Əliyev Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda keçirilən sessiyada aparıcının suallarını cavablandırarkən bildirib ki, müasir infrastrukturun yaradılması bizim hökumətin ən əsas məqsədlərindən biridir. **"Biz coğrafi vəziyyətimizdən faydalanaraq əsasən infrastruktura, yəni daxili infrastruktura və Azərbaycanın beynəlxalq hablardan birinə çevrilməsinə imkan verəcək infrastruktura sərmayə yatırmaqla doğru iş görmüşük. Biz yolların, magistralların, hava limanlarının tikintisi, qazlaşdırmanın aparılması, elektrik enerjisinin generasiyası üçün ölkə daxilində infrastruktura sərmayə yatırırıq",** - deyə Azərbaycanın dövlət başçısı vurğulayıb.

*"Biz sərmayələrə açığıq. Biz, həmçinin şirkətləri podratçı olmağa dəvət edirik"*

Son 15 ildə istifadəyə verilən generasiya obyektləri respublikamızda böyük iqtisadi və sosial önəm daşıyan infrastruktur quruculuğuna yaxşı nümunədir. 2004-cü ilə qədər Azərbaycanda 3900 meqavat gücündə cəmi 9 elektrik stansiyası mövcud idi. Son 15 ildə isə respublikamız 30 yeni elektrik stansiyası tikməyə və özünün generasiya güclərini daha 2500 meqavat artırmağa nail olub. Hazırda respublikamız həm elektrik enerjisinə olan daxili tələbatını tam olaraq yerli istehsal hesabına ödəyir, həm də müəyyən həcmlərdə ixrac imkanlarımız yaranıb. Eyni zamanda, cari ildə ölkədə həm yeni generasiya güclərinin yaradılmasına, həm də ötürücü xətlərin, yarımstansiyaların tam dayanıqlılığını təmin etməyə lazımi qədər vəsait ayrılması nəzərdə tutulub. 2019-cu ildə ölkəmizdə 400 meqavat gücündə "Şimal-2" elektrik stansiyasının istifadəyə verilməsi də planlaşdırılıb.

Bütün respublika üzrə aparılan müasir infrastruktur quruculuğu, həmçinin yaşayış məntəqələrinin qazlaşdırılmasında öz əksini tapıb. Son 15 ildə "mavi yanacaq" təminatında vəziyyətin əhəmiyyətli dərəcədə yaxşılaşması diqqətəlayiq haldır. Bəhs olunan dövrdə bütün ölkə üçün çox sayda qazlaşdırma layihələri reallaşdırılıb. Nəticədə, regionların "mavi yanacaq" təminatı yaxşılaşıb, hətta əvvəllər heç vaxt qazlaşdırılmamış yaşayış məntəqələrinə də yeni boru kəmərləri çəkilib və hazırda sakinlərin evlərində "mavi yanacaq" alovlanır. Uğurla həyata keçirilən layihələr sayəsində respublikamızda qazlaşdırmanın səviyyəsi 95 faizə çatdırılıb ki, bu da kifayət qədər yaxşı göstəricidir. Aparılan işlər nəticəsində ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 2 185 460-a çatıb. O cümlədən 2018-ci ildə 41 798 yeni abonent qeydiyyata alınıb.

*"Biz yolların, magistralların, hava limanlarının tikintisi, qazlaşdırmanın aparılması, elektrik enerjisinin generasiyası üçün ölkə daxilində infrastruktura sərmayə yatırırıq"*

Son illərdə respublikamızda həmçinin böyük iqtisadi və sosial əhəmiyyət daşıyan su layihələrinin icrası da uğurla təmin edilir. Bura həm içməli su layihələri, həm də meliorativ tədbirlər daxildir. Ötən 15 ildə reallaşdırılan içməli su və kanalizasiya layihələri ölkənin bütün bölgələrini əhatə edib və nəticədə, respublika üzrə əhalinin yüksək keyfiyyətli su ilə təchizatında dönüş yaranıb. Əgər 2004-cü ildə ölkədə fasiləsiz içməli su ilə təminat 26 faiz səviyyəsində idisə, 2018-ci ildə bu göstərici 67 faizə çatdırılıb. Perspektivdə isə respublikada əhalinin su təchizatının daha yüksək səviyyəyə çatdırılması hədəflənib.

Respublikanın regionlarında hazırda istifadə olunan torpaqların su təminatının yaxşılaşdırılması və yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi üçün uğurla reallaşdırılan layihələrin statistikası da kifayət qədər zəngindir. Son 15 ildə ölkə üzrə 390 min hektar sahədə torpaqların su təminatı və 261 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılıb, 146 min hektar yeni suvarılan torpaqlar əkin dövriyyəsinə cəlb edilib.

## AZƏRBAYCANIN NƏQLİYYAT İNFRASTRUKTURU YÜKLƏRİN ŞƏRQDƏN QƏRBƏ, ŞİMALDAN CƏNUBA VƏ CƏNUBDAN ŞİMALA NƏQLİNƏ İMKAN VERƏCƏK

Azərbaycanda geniş vüsət alan və ölkəmizin müasir simasını səciyyələndirən yüksəksəviyyəli infrastruktur quruculuğu prosesini, həmçinin bütün respublika üzrə avtomobil yollarının, yolayrıcıların, körpülərin inşasının və yenidən qurulmasının timsalında aydın şəkildə izləmək mümkündür. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, 2004-cü ildən bəri respublikamızda 15 min kilometr yol çəkilib, 443 körpü tikilib.

Son illərdə respublikamızda yol infrastrukturu quruculuğundan söhbət açarkən ölkə ərazisindən keçən Şərq-Qərb və Şimal-Cənub dəhlizləri boyunca magistral yolların yüksək standartlar səviyyəsində yenidən qurulmasının önəmini xüsusi qeyd etmək lazımdır. Azərbaycanın magistral yolların yüksək səviyyədə yenidən qurulmasını diqqət mərkəzində saxlaması yalnız ölkədaxili amillərlə bağlı deyil. Respublikamızda magistral yolların yenilənməsini zəruri edən digər mühüm amil Azərbaycanın tranzit daşımaları üçün əlverişli coğrafi mövqeyə və bir sıra digər üstünlüklərə malik olması ilə bağlıdır. Azərbaycanın əlverişli coğrafi mövqeyi respublikamızın istər Şərq-Qərb, istərsə də Şimal-Cənub dəhlizlərində vacib rol oynamasını şərtləndirir. Respublikamız həm ölkədaxili ictimai-siyasi sabitlik baxımından, həm də quru və su sərhədlərinə malik olmasına, eləcə də iqtisadi resurslarına görə beynəlxalq tranzit daşımaları üçün kifayət qədər cəlbedici məkandır. Bütün bu deyilənlərə dövlət səviyyəsində yüksək siyasi iradə nümayiş etdirildiyini də əlavə etsək, onda Azərbaycanın müxtəlif istiqamətlərdə tranzit daşımaları üçün necə əlverişli ölkə olduğu barədə konkret təsəvvür yaranar.

Son illərdə qeyri-neft sektorunun inkişafına güclü siyasi iradə və maddi dəstək göstərən Azərbaycan, eyni zamanda, özünün əlverişli coğrafi mövqeyindən bəhrələnərək tranzit imkanlarını daha da genişləndirməyə və bu yolla ölkəmizin əlavə gəlirlər əldə etməsinə nail olmağa çalışır. Bu məqsədlə Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində ölkə ərazisində nəqliyyat xidmətləri inkişaf etdirilir, daşımaların idarə olunması mexanizmi təkmilləşdirilir və beynəlxalq nəqliyyat sisteminə inteqrasiya daha da genişləndirilir.

Azərbaycan qədim İpək Yolunun bərpasına yüksək siyasi iradə nümayiş etdirir. İndiyədək respublikamız qədim İpək Yolunun bərpası ilə bağlı müxtəlif məsələlərin müzakirə edildiyi bir sıra beynəlxalq səviyyəli tədbirə uğurla ev sahibliyi edib. Bu tədbirlərdə iştirakçı tərəflər ölkəmizin geniş tranzit imkanları barədə məlumat alıblar. Respublikamız, həmçinin Çin tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" layihəsinə də dəstək nümayiş etdirir. O cümlədən indiyədək respublikamızda İpək Yolunun Azərbaycandan keçən hissəsinin yenidən qurulması, bütövlükdə Şərq-Qərb marşrutu üzrə böyük iş həcmi yerinə yetirilib.

Respublikamızın ərazisində, həmçinin Şimal-Cənub dəhlizinin ayrı-ayrı seqmentlərini təşkil edən magistralların yenidən qurulması da uğurla həyata keçirilir. İndiyədək respublikamız istər Rusiya sərhədinə, istərsə də İran sərhədinədək olan magistralların yenidən qurulmasına böyük həcmlərdə maliyyə vəsaiti yönəldib. 2018-ci il sentyabrın 18-də Şimal-Cənub dəhlizinin mühüm seqmentlərindən biri olan Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun açılışı olub. Mövcud Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun ümumi uzunluğu 243 kilometr idisə, yeni avtomobil yolunun ümumi uzunluğu 204 kilometrdir. Yol birinci texniki dərəcəyə aiddir.

Hazırda respublikamızın ərazisində bir sıra magistral yolların yüksək standartlar səviyyəsində yenidən qurulması uğurla davam etdirilir. Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən, H.Z.Tağıyev qəsəbəsindən başlayan 92 kilometr uzunluğundakı yol da bu qəbildəndir. Şimal-Cənub nəqliyyat dəhlizinin mühüm seqmentlərindən olan yol 1B texniki dərəcəyə uyğun inşa edilir.

*"İndi Azərbaycanın təkcə başqa ölkələrə investisiya yatırmaq yox, həm də infrastruktura, real iqtisadiyyata sərmayə yatırmaq strategiyası var. Eyni zamanda, biz digər ölkələrdə həyata keçirilən infrastruktur layihələri üçün borc pul veririk"*

Azərbaycanın moderatorluğu ilə inşa olunan Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur.

Bütövlükdə regionun tranzit imkanlarının genişləndirilməsi baxımından respublikamızın Ələtdə inşa etdiyi və 2018-ci ildə istifadəyə verilən Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının əhəmiyyəti kifayət qədər böyükdür. Çox haqlı olaraq Ələt limanının istifadəyə verilməsi Azərbaycanın regionda nəqliyyat-logistik infrastrukturun inkişafına növbəti sanballı töhfəsi kimi dəyərləndirilir. Yerləşdiyi ərazinin böyük üstünlüklərə malik olması sayəsində yeni liman Azərbaycanda nəqliyyatın təhlükəsizliyi məsələlərini uğurla həll etməyə, Bakını Xəzər hövzəsində çox müasir və böyük logistika, nəqliyyat mərkəzinə çevirməyə, Xəzəryanı ölkələr arasındakı əməkdaşlığı dərinləşdirməyə, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin tam gücü ilə işləməsinə əlverişli imkanlar yaradır. Limanın illik yükaşırma qabiliyyəti 15 milyon tondur. Tranzit yüklərin həcmi artarsa, qısa müddət ərzində limanın yükaşırma imkanları 25 milyon tona çatdırıla bilər. Prezident İlham Əliyev yaradılan nəqliyyat infrastrukturunun ölkəmizə böyük üstünlüklər qazandırdığına diqqət çəkərək vurğulayıb: **"Biz, həmçinin nəqliyyat infrastrukturuna da sərmayə yatırmışıq. Bu da bizə yüklərin Şərqdən Qərbə, Şimaldan Cənuba və Cənubdan Şimala nəqlinə imkan verəcək.**

**Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvüdür. Biz, əlbəttə ki, Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyirik. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır. Biz artıq bunu müşahidə edirik. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir".**

## AZƏRBAYCAN YÜKSƏK SƏRMAYƏ CƏLBEDİCİLİYİNİ QORUYUB SAXLAYIR

Azərbaycanı fərqləndirən çox mühüm cəhət həm də ondan ibarətdir ki, ölkəmiz son 15 ildə genişmiqyaslı infrastruktur layihələrinə böyük həcmlərdə maliyyə vəsaiti yönəltməsinə baxmayaraq, borclanmaya getməyib. Əksinə, neft-qaz satışından əldə olunan gəlirlərin bir hissəsi məqsədli şəkildə Dövlət Neft Fondunda toplanaraq gələcək nəsillər üçün saxlanılır. Hazırda respublikamızın strateji valyuta ehtiyatları 45 milyard dollara çatıb ki, bu da kifayət qədər böyük vəsaitdir. Dünyada yaşanan çətinliklər fonunda öz maliyyə imkanlarını genişləndirmək, valyuta ehtiyatlarını artırmaq hər bir ölkə üçün strateji önəm daşıyır. Məlumdur ki, hazırda ayrı-ayrı dövlətlər getdikcə artan xərclərini qarşılamaqda ciddi çətinliklər çəkir və bu səbəbdən də nəzərdə tutulan sosial layihələrini belə ixtisar etmək məcburiyyətində qalır. Respublikamızın mənzərəsi isə tamamilə fərqli rakursdan diqqəti cəlb edir. Azərbaycan dünyanın azsaylı ölkələrindəndir ki, qlobal çətinliklər şəraitində özünün strateji valyuta ehtiyatlarını ilbəil artırmağa nail olub. Bu gün Azərbaycan üzərinə borc yığmayan ölkələr sırasında yer alır. Respublikamızın xarici borcu ümumi daxili məhsulun yalnız 19 faizinə bərabərdir. Eyni zamanda, respublikamız bu rəqəmi 10 faizə endirməklə bağlı qarşıya real hədəf qoyub. Məlum olduğu kimi, Prezident İlham Əliyev 24 avqust 2018-ci il tarixində "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"nın təsdiq edilməsi haqqında müvafiq Sərəncam imzalayıb. Bəhs olunan Strategiya orta və uzunmüddətli dövrdə respublikanın maliyyə dayanıqlığını təmin etməyə və ölkəmizin borclanmasını optimal səviyyədə saxlamağa hesablanıb.

İqtisadi-maliyyə imkanlarının genişlənməsi Azərbaycanın qarşısında əlverişli perspektivlər açıb. Respublikamız qısa müddətdə beynəlxalq maliyyə qurumlarından borc alan ölkədən borc verən ölkəyə çevrilib. Bunu nəzərə çatdıran Prezident İlham Əliyev **"İndi Azərbaycanın təkcə başqa ölkələrə investisiya yatırmaq yox, həm də infrastruktura, real iqtisadiyyata sərmayə yatırmaq strategiyası var. Eyni zamanda, biz digər ölkələrdə həyata keçirilən infrastruktur layihələri üçün borc pul veririk",** - deyə vurğulayıb.

Qeyd etmək yerinə düşər ki, respublikamızın xarici ölkələrdə investisiya siyasəti çoxşaxəlidir. Azərbaycan Gürcüstana sərmayə qoyan xarici ölkələrin arasında birinci yeri tutur. Respublikamız 2012-ci ildən bu birinciliyi qoruyub saxlayır. Bundan başqa, Azərbaycanın dünya brendinə çevrilən SOCAR şirkətinin Gürcüstanda çoxlu sayda pərakəndə yanacaqdoldurma məntəqəsi açılıb. SOCAR həmçinin dost ölkənin "mavi yanacaq"la təchizatında, o cümlədən də burada paylayıcı şəbəkənin qurulmasında və istismarında mühüm rol oynayır.

Respublikamız qonşu Rusiyada investisiya qoyuluşunu getdikcə artırır. Hazırda Azərbaycan Rusiyada müxtəlif investisiya layihələri reallaşdırır. İndiyədək Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard ABŞ dollarından çox sərmayələr yönəldilib. Azərbaycanlı sahibkarların investisiyaları hesabına Yessentukidə sanator-kurort mərkəzi inşa edilib. Hazırda Azərbaycandan yönəldilən sərmayələr hesabına Jeleznovodskda mehmanxana kompleksi ucaldılır. Belə misalların sayı kifayət qədər çoxdur.

2018-ci il 19 oktyabr tarixində əlamətdar hadisə baş verdi - Türkiyənin İzmir şəhərində Azərbaycanın investisiya qoyuluşu hesabına inşa edilən "Star" neft emalı zavodunun açılış mərasimi keçirildi. Bu, Azərbaycanın ölkə xaricində reallaşdırdığı ən iri investisiya layihəsidir. "Star Rafineri"nin yaradılması üçün Azərbaycan 6,3 milyard dollar yatırım edib. Növbəti mərhələdə əlavə 700 milyon dollar investisiya qoyuluşu nəzərdə tutulur.

Eyni zamanda, Azərbaycan yeni iqtisadi şəraitdə də daxili və xarici sərmayələr üçün yüksək cəlbediciliyini qoruyub saxlamaqdadır. Ayrı-ayrı ölkələrin sərmayə cəlbediciliyi baxımından ciddi problemlərlə üzləşdiyi bir vaxtda respublikamıza sərmayə cəlbediciliyinin yüksək olması ilk növbədə Azərbaycanın müsbət reallıqları ilə bağlıdır. Qeyd etmək yerinə düşər ki, yeni iqtisadi şəraitdə dövlət həmçinin investisiyaların təşviqinin hüquqi bazasının möhkəmləndirilməsinə böyük siyasi iradə nümayiş etdirir. Ölkədə reallaşdırılan islahatların bir qismi investisiya fəallığının artırılmasına hesablanıb. Prezident İlham Əliyevin son illərdə imzaladığı sənədlər əsasında respublikamızda investisiyaların təşviqi mexanizmi işə düşüb və öz müsbət nəticələrini verir. Bu kimi amilləri nəzərə alan Prezident İlham Əliyev deyib ki, biz sərmayələrə açığıq. Biz, həmçinin şirkətləri podratçı olmağa dəvət edirik.

*"Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvüdür. Biz, əlbəttə ki, Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyirik"*

Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik ölkə olduğunu respublikamıza yönəldilən sərmayələrin getdikcə artması bir daha təsdiqləyir. Son 15 ildə müxtəlif mənbələrdən respublikamıza 250 milyard dollar həcmində investisiya yönəldilib. Bunlar həm daxili, həm də xarici investisiyalardır. Ölkə üzrə sənaye parklarına 3,6 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulur. İndiyədək müxtəlif layihələrin icrasına 2,6 milyard dollar vəsait yönəldilib. Neftçala Sənaye Məhəlləsinin yaradılmasına dövlət tərəfindən 20 milyon manatdan çox vəsait ayrılıb. Sumqayıt Kimya Sənaye Parkının ərazisində reallaşdırılan "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən müəssisələrə böyükhəcmli daxili və xarici investisiyalar yönəldilir. Bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur. 2019-cu il yanvarın 16-da Sumqayıt Kimya Sənaye Parkının ərazisində istifadəyə verilən "SOCAR karbamid" zavodu hazırda ölkədə qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihədir və ümumi dəyəri təxminən 800 milyon avro təşkil edir. Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçirilib. Zavodun inşası zamanı bir sıra beynəlxalq banklardan dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib.

**Mübariz ABDULLAYEV**

# Hikmət Hacıyev: Azərbaycan Prezidenti ilə Ermənistan baş nazirinin Davosdakı görüşü Düşənbə və Sankt-Peterburqdakı görüşlərin davamı kimi qiymətləndirilə bilər

***Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən qeyri-rəsmi görüşü ilə bağlı AZƏRTAC-ın sualını cavablandırıb.***

**- Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən qeyri-rəsmi görüşü barədə nə deyərdiniz?**



- Bu görüş Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin təşəbbüsü ilə keçirilib. Görüş Düşənbə və Sankt-Peterburqda MDB Zirvə toplantısı çərçivəsində baş tutmuş qeyri-rəsmi görüşlərin davamı kimi qiymətləndirilə bilər.

Bildiyiniz kimi, danışıqlar prosesi Ermənistan və Azərbaycan xarici işlər nazirləri səviyyəsində aparılır. Belə ki, bu il yanvarın 16-da Parisdə, 2018-ci il dekabrın 3-də isə Milanda Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü keçirilib. Qarşıdan gələn dövrdə də xarici işlər nazirləri səviyyəsində görüşün keçirilməsi nəzərdə tutulub.

Tam formatda dövlət başçıları səviyyəsində görüş, bir qayda olaraq, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təşkil olunur.

# Sevinc Fətəliyeva: Hər bir KİV yaydığı xəbərə görə məsuliyyət daşıdığını unutmamalıdır

Bu gün kütləvi informasiya vasitələrinin münasibətlərin, maraqların və siyasi mövqenin formalaşmasındakı rolu böyükdür. Son onilliklər ərzində internet texnologiyaları insan fəaliyyətinin bütün sferalarına nüfuz edib. Siyasi proseslər də bu təsirdən yan keçməyib. İnternet bütün proses iştirakçılarına informasiyanı təkcə istehlak etməyə deyil, həm də onu özlərinin yaratmasına imkan verir. Ənənəvi media daha çox insanların siyasi fəaliyyətinə yönəldiyi halda, sosial media insanların siyasətdən kənar şəxsi keyfiyyətlərini də işıqlandırır ki, bu da müsbət və ya mənfi imic yaradır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri AŞPA-nın qış sessiyasında "Kütləvi informasiya vasitələri dezinformasiya və təbliğat kontekstində" və "Media azadlığı demokratik seçkilərin şərti kimi" mövzuları ilə bağlı müzakirələrdə Azərbaycan nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva söyləyib.



Deputat bildirib ki, siyasi təşkilatlar üçün sosial şəbəkələrdən istifadənin böyük üstünlüyü informasiyanın istifadəçilərə birinci şəxsdən, düzgün formada çatdırılmasıdır. Milyonlarla insan heç bir mövzuda senzuraya məruz qalmadan fikirlərini sərbəst ifadə edə bilir. Sosial media elə bir yeni reallıq yaradıb ki, burada o, ənənəvi mediadan daha sürətlidir. İstehsalı heç bir xərc tələb etməyən saxta xəbərlər dərhal yayılır və məşhurlaşır. Heç kim nəyin doğru, nəyin yalan olmasını araşdırmaqda maraqlı deyil.

S.Fətəliyeva qeyd edib ki, bu informasiya müharibəsində yəqin ki, "Facebook" və "Twitter" qalib gələcək, çünki investorlar ənənəvi mediadan çox yeni platformalara yatırım etməkdə maraqlıdırlar. Bu səbəbdən də hər bir kütləvi informasiya vasitəsi media azadlığından yararlanmaqla yanaşı, yaydığı xəbərə görə məsuliyyət daşıdığını unutmamalıdır. Mediada və internet resurslarında etibarlı məlumat pərdəsi altında saxta informasiyanın və cəmiyyətə, dövlətə hörmətsizlik ifadə edən təhqiramiz materialların yayılmasına görə məsuliyyətə cəlb edən qanunların işlənib hazırlanmasına böyük zərurət var.

Azərbaycanlı deputat medianın seçkilər zamanı roluna da toxunub, onun müsbət və mənfi məqamlarını diqqətə çatdırıb.

# AŞPA-nın qış sessiyasında süni intellektin yaratdığı risk və təhdidlərdən danışılıb

İnternet idarəçiliyi haqqında danışarkən internetin bizə təqdim etdiyi süni intellektin insan həyatının idarə olmasına və ümumiyyətlə, insan həyatına təsirindən bəhs etməliyik. Son zamanlar süni intellektin inkişafının bir çox potensial risklərlə əlaqəsi barədə bəyanatlar artmaqdadır. Texnologiyaların sürətlə inkişafı həyatımıza daha dərindən nüfuz edib. Süni intellekt həyatımızı asanlaşdırmaq, bir çox prosesləri sadələşdirməklə bərabər, müəyyən risklər və təhdidlər də yaradır.

Bu fikirləri AŞPA-nın qış sessiyasında Azərbaycan nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva "İnternet idarəçiliyi və insan hüquqları" məruzəsinin müzakirələri zamanı söyləyib. O bildirib ki, müstəqil alqoritmlərdən istifadə edən sosial media hədəflənmiş marketinq sahəsində çox səmərəli işləyir. Onlar kim olduğumuzu, nə istədiyimizi, hansı məkanlara tez-tez getdiyimizi, hətta nə haqqında düşündüyümüzü çox dəqiqliklə müəyyən edir və müxtəlif fikirlər yaratmaqla bərabər, düşüncə tərzimizin dəyişməsini asanlıqla müəyyən edir.

Süni intellekt alqoritmlərin və şəxsi məlumatların köməyi ilə qabaqcadan müəyyən olunmuş və konkret şəxslərə yönəlmiş təbliğatı yaymaqla həmin insanların əhval-ruhiyyəsini idarə, informasiyanı onlar üçün daha inandırıcı olan istənilən formatda təqdim edə bilir.

Bu gün internet vasitəsilə istifadəçilərin hər addımını, həmçinin onların öz gündəlik işləri ilə məşğul olduqları vaxtı izləmək və təhlil etmək mümkündür. Kameralar demək olar ki, hər yerdədir və üztanıyan alqoritmlər bizi asanlıqla müəyyən edir.

Daim müşahidə altında olmağımız nəticəsində əldə edilən informasiya əsasında qərarların qəbul olunması şəxsi həyata müdaxilə etməklə bərabər, sürətlə sosial zülmə çevrilir. Daha qabaqcıl texnologiyalar uğrunda yarışan şirkətlər süni intellektin yaratdığı təhlükələri unuda bilərlər. Hökumətlər süni intellektin bütün mümkün risk və təhdidlərini araşdırmalıdırlar. Yalnız dövlət tənzimləməsi ilə daha təkmil süni intellekt axtarışında olanların qarşısı alına bilər.

# Sədaqət Vəliyeva: Böyük enerji şirkətlərinin Azərbaycana sərmayə yatırması ölkəmizdəki siyasi sabitlik və təhlükəsizlik amili ilə bağlıdır

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyevin dünyanın böyük transmilli enerji şirkətlərini Azərbaycanın neft-qaz sektoruna sərmayə yatırmasına inandırmasından sonra ölkəmizdə yeni dövrün başlanğıcı qoyuldu. 1994-cü ildə Britaniyanın, ABŞ-ın, Avropa ölkələrinin və digər dövlətlərin iri enerji şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasından sonra ölkəmizin iqtisadiyyatının lokomotivi hesab edilən neft-qaz sektorunda sıçrayışlı inkişaf dövrü başlandı.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.



Sədaqət Vəliyeva bildirib ki, ötən müddət ərzində BP və başqa transmilli enerji şirkətləri Azərbaycanda səmərəli fəaliyyət göstərib, ölkə iqtisadiyyatına sərmayələr yatırıblar. Əlbəttə ki, böyük enerji şirkətlərinin Azərbaycana sərmayə yatırması, ilk növbədə, ölkəmizdəki siyasi sabitlik və təhlükəsizlik amili ilə bağlıdır. İkincisi, dünyanın ən aparıcı enerji şirkətləri ilə həm Ulu öndər Heydər Əliyevin, həm də Ümummilli liderimizin layiqli davamçısı Prezident İlham Əliyevin fəaliyyəti sayəsində Azərbaycan dövlətinin və xalqının milli maraqlarından çıxış edərək ölkəmizin perspektiv inkişafına hesablanmış səmərəli əməkdaşlıq əlaqələri qurulub. Heç kəs təsəvvür belə edə bilməzdi ki, zaman gələcək, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayacaq. Təsadüfi deyildir ki, bu gün Azərbaycan BTC, BTƏ, TANAP, TAP kimi transmilli layihələrlə bir çox dövlətlərin və regionların qarşılıqlı səmərəli əməkdaşlığını təmin edir, eyni zamanda, təhlükəsizliyin də qorunmasına və möhkəmlənməsinə öz töhfəsini verir.

Azərbaycanın dünyada böyük inam və etibar qazanmış tərəfdaş statusuna malik ölkə olduğunu deyən deputat əlavə edib ki, Davosda Prezident İlham Əliyevlə onlarla şirkətin rəhbərlərinin görüş keçirməsi ölkəmizdəki sabitliyin, təhlükəsizliyin və sərmayə yatırmaq üçün münbit şəraitin olması ilə birbaşa bağlıdır. Bu gün Azərbaycan iqtisadiyyatına təxminən 250 milyard dollar sərmayə yatırılıb. Düşünürəm ki, perspektivdə həm enerji, həm də digər sektorlarda Azərbaycana investisiya yatırmaq istəyən şirkətlərin sayı daha çox olacaq və bu rəqəm dəfələrlə artacaq.

# Səməd Seyidov: Ölkələrlə qarşıdurma deyil, dialoq yaratmaq lazımdır

Çox qəribədir, imzalamadığımız bir sənəddən imtina etməyimiz istənilir.

AZƏRTAC xəbər verir ki, bu fikri AŞPA-nın "Şəriət qanununun İnsan Hüquqları üzrə Avropa Konvensiyasına uyğunluğu: Konvensiyaya qoşulan ölkələr Qahirə Bəyannaməsinin iştirakçısı ola bilərmi?" adlı məruzənin müzakirələri zamanı qurumdakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov söyləyib.

Nümayəndə heyətinin rəhbəri bildirib ki, Avropa Şurası 10 il əvvəl Azərbaycanla fəxr edirdi. Bakıda Avropa Şurasına üzv olan 47 ölkənin, eləcə də 10 İslam ölkəsinin mədəniyyət nazirlərinin konfransında Bakı Bəyannaməsi imzalandı. Qarşılıqlı anlaşma, mədəniyyətlərarası əlaqələr, birgə gələcək, insan hüquqları haqqında olan bu Bəyannamənin imzalanması yüksək qiymətləndirildi. Ancaq 10 il sonra Azərbaycan, Albaniya və Türkiyədən heç vaxt imzalamadığımız Qahirə Bəyannaməsindən imtina etmək tələb olunur. Azərbaycan 1991-ci ildə İslam Əməkdaşlıq Təşkilatının üzvü olub. Qahirə Bəyannaməsi isə 1990-cı ildə imzalanıb. Ölkəmiz heç vaxt Qahirə Bəyannaməsini imzalamayıb. Biz dünyəvi ölkəyik. Bakının mərkəzində kilsə, sinaqoqlar var, onların sayı çoxalır. Ölkəmizdə əhalinin əksəriyyəti müsəlmandır. Biz müsəlman irsimizlə fəxr edirik. İrsimizi qoruyub saxlayırıq, amma dünyəvi ölkəyik.



Biz Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışıq. İnsan hüquqları, demokratiya, qanunun aliliyi kimi ümumi dəyərləri daha yaxşı anlamaq məqsədilə dəfələrlə Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının birgə komissiyasını təşkil etməyi tövsiyə etmişik.

S.Seyidov vurğulayıb ki, İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqəsi olan ölkələrə qarşı müəyyən cəza ideyalarından danışmaq əməkdaşlıq yolu deyil. Dialoq yaratmaq bu təşkilatda eyni dəyərləri bölüşən ölkələrlə qarşıdurma yaratmaqdan daha yaxşı olar. Nümayəndə heyətinin rəhbəri əməkdaşlığın tərəfdarı olduğunu vurğulayıb.

# Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin yaz sessiyasında ilk iclası keçirilib

Yanvarın 23-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Əli Hüseynli əvvəlcə 2018-ci ilin payız sessiyası dövründə görülən işlər barədə məlumat verib. Bildirilib ki, hesabat dövründə komitənin 25 iclası keçirilib və 169 məsələ müzakirə olunub.

Komitənin payız sessiyası dövründə fəaliyyəti qənaətbəxş qiymətləndirilib.



Daha sonra komitənin 2019-cu il yaz sessiyası üçün nəzərdə tutulan qanunvericilik işləri planı müzakirə olunub və təsdiqlənib.

İşlər planına Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Baş prokurorunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələri, eləcə də "Peşə birlikləri haqqında", "Sosial sifarişlər haqqında", bir sıra qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələri daxil edilib.

Bildirilib ki, "Peşə birlikləri haqqında" qanun layihəsi bu fəaliyyət növünün hüquqi tənzimlənməsi məqsədini daşıyır, eyni zamanda, bu sahədə çalışan insanların hüquqlarının qorunmasına xidmət edir.

"Sosial sifarişlər haqqında" qanun layihəsinə isə QHT-lərin, vətəndaş cəmiyyətlərinin bir çox sosial əhəmiyyətli layihələrin icrasında iştirakının qanunla tənzimlənməsi baxımından ehtiyac olduğu qeyd edilib.

İclasda "Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında" və "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" qanun layihələri ikinci oxunuşda müzakirə edilib. Diqqətə çatdırılıb ki, hər iki sənəd "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" və "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Konstitusiya qanunlarının tətbiqi məqsədilə hazırlanıb.

"Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə ikinci oxunuşda baxılıb. Bildirilib ki, sənəd Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nə uyğunlaşdırma və Milli Məclis haqqında qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Eyni zamanda, gündəlikdəki "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında", "Sərhəddə fərqlənməyə görə" medalının Əsasnaməsinin təsvirinin təsdiq edilməsi haqqında", "Silahlı Qüvvələrin qarnizon və qarovul xidmətləri Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmət keçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "İnzibati icraat haqqında", "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında", "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında", İnzibati Xətalar Məcəlləsində və "Avtomobil nəqliyyatı haqqında" qanunda, "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" qanunlarda, eləcə də Seçki Məcəlləsində, Əmək Məcəlləsində və Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri də müzakirə edilib. Bildirilib ki, nəzərdə tutulan bütün dəyişikliklər texniki xarakter daşıyır.

Müzakirələrdən sonda bütün qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Azərbaycanlı deputat AŞPA-nın sessiyasında internet idarəçiliyinin əhəmiyyətindən danışıb



"İnternet idarəçiliyi və insan hüquqları" məruzəsində internetin bir sıra insan hüquqlarının reallaşmasında, bərabərsizliyə qarşı mübarizədə, inkişafın və bəşəriyyətin təkamülünün sürətləndirilməsində əvəzsiz rolu xatırlanıb.

Bu fikri AŞPA-nın qış sessiyasında Azərbaycan nümayəndə heyətinin üzvü Naqif Həmzəyev qurumun Liberal Demokratlar qrupu adından "İnternet idarəçiliyi və insan hüquqları" məruzəsinin müzakirələri zamanı söyləyib. O bildirib ki, internetin bəşəriyyətin iqtisadiyyat, sosial, ticarət, maliyyə, innovasiya, azadlıqların icrası kimi bütün sahələrində böyük potensialı var. Qeyd edib ki, bu günə qədər görülən işlərə baxmayaraq, milli səviyyədə rəqəmsal bölgü, dövlət senzurası və təkmilləşdirilmiş kibertəhlükəsizlik imkanları sahələrində hələ görüləcək çox işlər var. Bu gün yaşadığımız rəqabətliliyin artdığı və dinamik dünyada, insan hüquqlarının bir hissəsi olan təhlükəsizliyin qorunub saxlanması üçün internet əsas amildir.

Azərbaycanlı deputat dünyanın inkişafını elektron rabitə vasitələrsiz təsəvvür etməyin mümkün olmadığını, insanların qarşılıqlı əlaqəyə ehtiyacları olduğunu vurğulayıb. Bildirib ki, beynəlxalq konsensus və standartların yaranması prioritet olmalıdır. Dünyada internet idarəçiliyi mühitinin yaradılmasına ehtiyac var.

# Avropa Şurasında Azərbaycandakı azad internet mühitindən bəhs edilib

Jurnalistikanın və mətbuat işçilərinin ən müxtəlif problemləri Avropa Şurası Parlament Assambleyasının (AŞPA) mədəniyyət, elm, təhsil və media komitəsinin daimi diqqətindədir və davam edən qış sessiyasında da gündəlikdə bu komitənin təqdim etdiyi 3 mühüm məruzə yer alıb. Komitənin sessiyası çərçivəsində keçirilən növbəti toplantısında müzakirəyə çıxarılan "İnternet və insan hüquqları" məruzəsi də getdikcə həyatımızda daha artıq yer tutan vacib mövzuya həsr edilmişdi.

AZƏRTAC xəbər verir ki, komitə müzakirələrinə qoşulan Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov uzun illərdən bəri mətbuatla bilavasitə bağlı olduğunu, həm Azərbaycan kütləvi informasiya vasitələrində, həm də beynəlxalq radiolarda çalışdığını söyləyərək müqayisələr aparmaq imkanının olduğunu bildirib.

**"Azərbaycanın 2000-ci illərin əvvəlləri ilə indiki mətbuat həyatını, internet şəbəkəsinin, sosial medianın həmin dövrdəki və indiki mənzərəsini tutuşduranda, sözün birbaşa mənasında, çox da böyük olmayan zaman kəsiyində sıçrayışlı irəliləyişlərə nail olunduğunu görürük"**, - deyə R. Hüseynov qeyd edib. Bu inkişafla bağlı faktları sadalayaraq, inkişafın yalnız artan rəqəmlərdə deyil, keyfiyyətdə də ifadə olunduğunu, Azərbaycan əhalisinin əksəriyyətinin sosial şəbəkənin fəal istifadəçiləri olduğunu vurğulayıb.

**"Bu gün Azərbaycanda kifayət qədər münbit media mühiti var. Azad internet mühitinin olması bunun ən bariz göstəricilərindəndir. İnternet istənilən anda istənilən yazını, istənilən fikri sosial şəbəkəyə çıxarmağa, paylaşmağa imkan verir. Sosial şəbəkə isə ən iti sürətli radio, televiziya, qəzet, informasiya agentliyi deməkdir.**

**Azərbaycanda bu gün 40-a yaxın gündəlik, 200-dən çox həftəlik və aylıq qəzet var, 100-ə yaxın jurnal nəşr olunur. Eləcə də bölgələrdə 120-yə yaxın qəzet çıxır, 20 informasiya agentliyi, 23 mətbuat yayımı müəssisəsi mövcuddur"**, - deyə deputat bildirib.



Qeyd olunub ki, Azərbaycanda ölkə üzrə 11 telekanal fəaliyyət göstərir, 4 peyk televiziyası, 13 region, 17 kabel televiziyası, 2 internet televiziyası işləyir. Azərbaycanda bu gün 3 milyondan çox insan sosial şəbəkədən istifadə edir ki, bunların 1 milyon 800 mini Facebook-un payına düşür. Azərbaycanda 40 internet provayderi var, internet trafikinin giriş-çıxışının həcmi 200 GB-dır. Azərbaycandan kütləvi informasiya mühitinin qısa statistik mənzərəsi belədir və əhalisi 10 milyon olan bir ölkə üçün bu rəqəmlər qənaətbəxş hesab edilir.

# Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır



*Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı www.yap.org.az saytına müsahibə verib:*

**- Məlahət xanım, məlum olduğu kimi, son illər ölkəmizdə bütün sahələr üzrə vacib islahatlar həyata keçirilib. Bu islahatların əhəmiyyəti nədən ibarətdir?**

- Son illər ərzində ölkəmizdə bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, Azərbaycan iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Məhz ötən dövrdə aparılan islahatların nəticəsidir ki, Azərbaycanda yüksək rəqabət qabiliyyətinə malik iqtisadiyyat formalaşıb. Təsadüfi deyil ki, ölkəmizin sosial-iqtisadi inkişaf sahəsindəki göstəriciləri bütün dünya üzrə ən yaxşılardan hesab edilir. Digər tərəfdən, Azərbaycanın dinamik inkişafı, iqtisadi və sosial sferada əsaslı pozitiv dəyişikliklərin həyata keçirilməsi, cəmiyyət həyatının bütün sahələrində müşahidə olunan yeniləşmə dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsini, səmərəliliyin yüksəldilməsini, çevik və məqsədyönlü fəaliyyət göstərən yeni idarəetmə strukturunun formalaşdırılmasını zərurətə çevirib. Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 14 yanvar 2019-cu il tarixində struktur islahatları istiqamətində mühüm qərarlar qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan struktur islahatlarının əsas məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir. Struktur islahatları dövlət idarəetməsini iqtisadi inkişafın yeni mərhələsinə uyğunlaşdırır. İdarəetmə və iqtisadi inkişaf arasında tarazlıq, qarşılıqlı əlaqə və bir-birini tamamlama kimi prinsiplər qorunur. Ümumiyyətlə, ölkəmizdə reallaşdırılan struktur islahatları dərin hüquqi və institusional islahatların davamı kimi mühüm əhəmiyyətə malikdir.

**- Sizcə, struktur islahatları perspektiv üçün nələr vəd edir?**

- Ümumiyyətlə, Prezident İlham Əliyevin son günlərdə struktur islahatları ilə bağlı imzaladığı müvafiq fərmanlar ölkəmizin hazırkı inkişaf mərhələsində meydana çıxan çağırışlara tam uyğundur. İdarəetmədə aparılan islahatlar Azərbaycanın yeni mərhələdə daha da inkişafına təkan verəcək. Azərbaycan demokratik və sivil idarəetməni əsas xətt kimi seçib və bu kontekstdə digər aparıcı dövlətlərlə təcrübə mübadiləsinə tam açıqdır. Azərbaycan dünya dövlətlərində idarəetmə sahəsində özünü göstərən prosesləri diqqətlə izləyir və müasir dövrün tələblərinə uyğun strukturlar yaradır. Bütövlükdə, ölkə Prezidentinin struktur islahatları ilə bağlı müvafiq fərmanlar imzalamasında məqsəd Azərbaycanda dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, dövlət orqanlarının və qurumlarının fəaliyyətinin optimallaşdırılması və dövlət büdcəsi vəsaitindən səmərəli istifadənin təmin edilməsidir. Yeni Azərbaycanın dövlət başçısı çevik surətdə struktur islahatlarını inkişaf etdirir. Azərbaycanın dinamik inkişafı ölkəmizdə yeni idarəetmə strukturunun formalaşdırılmasını zərurətə çevirib. Burada strateji uğurların davamlılığını təmin etmək üçün daha səmərəli şərtlər formalaşdırmaq ciddi əhəmiyyət kəsb edir. Təbii ki, bu zaman paralel strukturlar, səmərəliliyi lazımi səviyyədə olmayan qurumlar və kifayət qədər çevik fəaliyyət mexanizminə malik olmayan təşkilatlar idarəetmə vahidi kimi əvəzlənməlidir. Həmin işlərin reallaşması üçün isə sistemli islahatlar aparılmalıdır. Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmanlar bu kontekstdə olduqca əhəmiyyətli sənədlər olmaqla Azərbaycanda milli dövlət quruculuğu kursunun bütün prinsiplərinə tam uyğundur.

**- Məlahət xanım, son illər Azərbaycanın beynəlxalq müstəvidə də nüfuzu əhəmiyyətli dərəcədə artmaqdadır. Bu reallığın əsasında hansı amillər dayanır?**

- Regionumuzun lider dövləti olan Azərbaycan balanslaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasət kursu həyata keçirir. Bunun məntiqi nəticəsi kimi, respublikamızın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənir, Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb. Azərbaycanın xarici siyasəti dinamik və praqmatik xarakter daşıyır, ölkəmizin milli maraqlarının təmin olunmasına xidmət edir.

Xüsusilə Azərbaycan regionda sabitləşdirici aktor kimi fəaliyyət göstərməklə bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Buna görə də ölkəmiz hazırda regional güc mərkəzi kimi bölgədə sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Azərbaycan konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Belə olan halda, Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq münasibətlər sisteminin aktorları olan milli dövlətlər üçün strateji əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu ifadə edirlər.

Digər tərəfdən, Cənubi Qafqaz regionunun lider dövləti olan, müasir dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır. Regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi çıxış edən respublikamız sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. Eyni zamanda, Azərbaycan öz təklif və təşəbbüsləri ilə dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, qlobal xarakterli problemlərin həllinə dəyərli töhfələr verir. Bütövlükdə, Azərbaycan qlobal və regional səviyyəli tədbirlərə ev sahibliyi edən, bütün dünyanın diqqət mərkəzində olan mühüm məsələlərin müzakirə olunduğu siyasi, iqtisadi və humanitar mərkəz kimi tanınır. Azərbaycan beynəlxalq səviyyədə strateji dialoq və qarşılıqlı etimad mühitinin formalaşmasına öz töhfəsini verir. Beləliklə də, Azərbaycanın həyata keçirdiyi qlobal iqtisadi layihələr, ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə formalaşan yeni əməkdaşlıq formatları regionda iqtisadi və sosial rifahın, təhlükəsizlik və qarşılıqlı səmərəli əməkdaşlıq mühitinin yaranması və inkişafına mühüm təsir göstərir.

Azərbaycanın xarici siyasətində qonşu dövlətlərlə münasibətlərə də mühüm yer verilir. Bu gün ölkəmiz, işğalçı Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlərlə yüksək əlaqələrə malikdir. Buna misal olaraq xatırladım ki, Azərbaycan və Rusiya prezidentləri 2018-ci ildə 6 dəfə görüşüblər, ölkə başçıları arasında mövcud olan şəxsi dostluq münasibətləri iki ölkə arasında bütün istiqamətlər üzrə əlaqələrin inkişafına olduqca mühüm təsir göstərir. Azərbaycan, eyni zamanda, qonşu İranla əlaqələrini daha da genişləndirir, iki ölkənin rəhbərləri arasında isti münasibətlər qarşılıqlı əməkdaşlığın inkişafına pozitiv təsir göstərir. Türkiyəyə gəlincə isə, Azərbaycan müstəqillik illərində qardaş ölkə ilə münasibətlərini yeni keyfiyyət mərhələsinə yüksəltməyə nail olub, siyasi, iqtisadi, mədəni və digər sahələrdə qarşılıqlı əlaqələrin daha da intensivləşməsi "bir millət, iki dövlət" şüarına yeni məzmun gətirib. Eyni zamanda, ölkəmiz Gürcüstanla da strateji tərəfdaşlıq əlaqələri qurub, həyata keçirilən transmilli layihələr qonşu ölkənin inkişafı, təhlükəsizliyinin təmin edilməsində olduqca mühüm faktora çevrilib.

**- Yeni reallıqlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə necə təsir göstərə bilər?**

- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan region ölkələri ilə əlaqələrini inkişaf etdirməklə, bu əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməklə bölgədə təhlükəsizliyin bərqərar olmasına, inkişafa mühüm töhfə verib və bu zəmində formalaşan yeni reallığın müəllifinə çevrilib. Ötən illər ərzində uğurla reallaşdırılan siyasət Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi ilə əlaqədar bölgədə yeni reallığın yaranmasına səbəb olub. Məlumdur ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həlli Azərbaycan xarici siyasətinin əsas prioriteti olmaqla bərabər, ölkəmizin ərazi bütövlüyünün bərpası və sərhəd toxunulmazlığının təmin olunmasını milli diplomatiyamız qarşısında məqsəd kimi müəyyənləşdirir. Bunun üçün Azərbaycan ötən illər ərzində mühüm, dərin strateji diplomatiya siyasəti həyata keçirməklə ilk növbədə problemin həlli ilə bağlı yeni şərtlər formalaşdırmağa nail olub. Bu şərtlərin formalaşdırılması isə mühüm strateji istiqamətlər üzrə müəyyən edilmiş ardıcıl və məqsədyönlü siyasət sayəsində mümkün olub. İlk növbədə beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artırılması, regional və beynəlxalq təşkilatlarla ölkəmizin bərabərhüquqlu tərəfdaşlığa nail olması, ikinci isə regionda ermənilərlə ənənəvi əlaqələri olan və daha çox Ermənistanın tərəfdaşı kimi tanınan ölkələri öz tərəfdaşına çevirməsi siyasəti həyata keçirilib.

Azərbaycanın inkişafı və beynəlxalq əməkdaşlığını daha da inkişaf etdirməsinin fonunda işğalçı Ermənistan öz ənənəvi tərəfdaşlarını itirməsi, küncə sıxılması, sosial və iqtisadi kataklizmlər yaşaması ilə diqqəti cəlb edir. Bir sözlə, görünən odur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycanın regionda yaratdığı yeni geosiyasi reallıq Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin maraqları çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə tam zəmin yaradıb.

## Sahibə Qafarova: Azərbaycanda 2019-cu ilin "Nəsimi ili" elan olunması humanizm ideyalarının yaşadılmasına bir çağırışdır

Azərbaycan öz parlaq mədəniyyəti, zəngin mədəni, mənəvi dəyərləri ilə bəşəriyyətin mədəni irsinə böyük töhfələr verib.

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycanın Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin üzvü Sahibə Qafarovanın qurumun sessiyası çərçivəsində yayılmış yazılı çıxışında yer alıb.

Deputat qeyd edib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra mədəniyyət sahəsində çox ciddi addımlar atılıb, bu sahənin inkişafına xidmət edən mühüm qərarlar, mədəniyyət siyasətinin prioritetlərini müəyyən edən çoxsaylı normativ-hüquqi aktlar qəbul edilib. Bu siyasətin əsas prinsiplərindən birini mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi təşkil edir. Avropa Şurasına üzv olan ölkələrin mədəni zənginliklərinin, mədəni mirasının qorunmasının, bu sonsuz xəzinənin gələcəyin qurulmasında rolunun təşviq olunmasının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır.

2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunduğunu vurğulayan S.Qafarova qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə bağlı 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi haqqında Sərəncam imzalaması böyük əhəmiyyətə malik bir hadisədir. O deyib: **"İmadəddin Nəsimi təkcə Azərbaycan xalqının yox, bütün dünyanın ən nəhəng söz adamlarından biridir. Onun əsərlərində humanizm, barış kimi ümumbəşəri ideyalar yüksək poetik şəkildə tərənnüm olunub. Onun yaradıcılığı nəinki Azərbaycan xalqının, o cümlədən, bütün bəşəriyyətin fəlsəfi fikir tarixində dərin izlər qoyub. Altı əsr əvvəl yaşamış böyük şair və mütəfəkkirin Azərbaycan ədəbiyyatında və fikir tarixində müstəsna yeri vardır. Nəsimi böyük humanist şair, insanı ilahiləşdirən, onu ucaldan bənzərsiz şeirlərin müəllifidir".**



Sahibə Qafarovanın sözlərinə görə, Nəsiminin dərin poetik fikirləri, fəlsəfi görüşləri, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir. **"Şərqin böyük filosofunun fikirləri bir növ Qərb mədəniyyətinin və ədəbiyyatının nümayəndələrinin fikirlərinə bənzəyir. Azərbaycanda 2019-cu ilin məhz belə bir böyük sənətkarın adı ilə adlandırılması bir daha böyük mütəfəkkirin təbliğ etdiyi ümumbəşəri dəyərlərin, humanizm ideyalarının yaşadılmasına bir çağırışdır. Mən müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin bu çağırışa cavab verəcəyinə və dünya səviyyəsində humanizm və tolerantlıq ideallarının qalib gələcəyinə inanıram",** - deyə deputat vurğulayıb.

## Vergilər Nazirliyi ilə Qida Təhlükəsizliyi Agentliyi anlaşma memorandumu imzalayıb



Yanvarın 23-də Vergilər Nazirliyi ilə Qida Təhlükəsizliyi Agentliyi (AQTA) arasında birgə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənədi vergilər naziri Mikayıl Cabbarov və Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli imzalayıb.

Vergilər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, anlaşma memorandumu qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən fiziki və hüquqi şəxslər tərəfindən işçilərin qanunvericiliyə uyğun işə cəlb edilməsi, qida məhsulları, fitosanitar və baytarlıq nəzarətində olan məhsulların istehsalı, emalı və dövriyyəsi sahəsində fəaliyyət göstərən subyektlər və onların obyektləri haqqında qarşılıqlı məlumat mübadiləsi ilə bağlı əməkdaşlığı müəyyən edir.

Memoranduma əsasən, tərəflər fəaliyyət istiqamətləri üzrə hüquq və vəzifələrinin həyata keçirilməsində qarşılıqlı əlaqələrin gücləndirilməsinə, qarşılıqlı məlumat mübadiləsinin aparılması və qida məhsulları sahəsində fəaliyyət göstərən bütün subyektlərin vergiyə cəlb edilməsi üçün əməkdaşlığın genişləndirilməsinə dair razılığa gəliblər. Eyni zamanda, birgə əməkdaşlıq çərçivəsində vergi uçotuna və dövlət qeydiyyatına alınması üçün müraciət edən, o cümlədən vergi uçotuna və dövlət qeydiyyatına alınmış qida sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması barədə məlumatlandırılması nəzərdə tutulur.

Sənəddə iki qurum arasında əməkdaşlıq formaları, tərəflərin üzərinə götürdüyü öhdəliklər öz əksini tapıb. Əməkdaşlıq çərçivəsində əmək müqaviləsi bağlanılmadan işə cəlb olunmuş şəxslər, aksizsiz və ya saxta aksizli mallar, habelə məcburi nişanlama tələb edən, lakin nişanlanmamış malların satışının həyata keçirilməsi faktları aşkar edildikdə, həmin hallar barədə qarşılıqlı məlumat mübadiləsinin aparılması nəzərdə tutulur. Tərəflər, həmçinin sahibkarlıq subyektlərinin maarifləndirilməsi məqsədilə birgə tədbirlər həyata keçirəcək.

Bildirilib ki, qida məhsulları sektorunda birgə əməkdaşlıq vergi və qida təhlükəsizliyi sahəsində dövlət nəzarətinin səmərəliliyinin artırılmasına xidmət edəcək.

## Bakıda "Mediada gender bərabərliyi" mövzusunda təlimlər başlayıb

Yanvarın 23-də Bakıda Avropa Şurasının və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə jurnalistlər və jurnalistika fakültəsinin 4-cü kurs tələbələri, eləcə də magistrlər və doktorantlar üçün "Mediada gender bərabərliyi" mövzusunda təlimlərə başlanılıb.



AZƏRTAC xəbər verir ki, təlimin açılış sessiyasında çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova mövzunun aktuallığını vurğulayıb. Bildirib ki, üç gün ərzində təlim iştirakçıları yetərincə məlumat alacaqlar, bir-biriləri ilə fikir mübadiləsi apara biləcəklər.

Komitə sədrinin müavini ölkəmizdə medianın inkişafı istiqamətində görülən işlərdən danışıb. Qeyd edib ki, Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə medianın hüquqi bazası möhkəmlənib. Ulu öndər KİV-lərin inkişafına böyük diqqət və qayğı göstərirdi. Onun bu siyasətini hazırda Prezident İlham Əliyev uğurla davam etdirir.

Avropa Şurasının Bakıdakı ofisinin rəhbəri Zoltan Hernyes deyib ki, 2018-ci il mayın 1-dən icrasına başlanılmış gender bərabərliyi və media azadlığı layihəsi təşkilata üzv dövlətdə ilk dəfə həyata keçirilən layihədir. Biz bunu nümunə ola biləcək pilot layihə adlandırsaq yanılmarıq. Əgər layihə uğurlu olsa, Avropa Şurasının digər üzv dövlətləri üçün də model kimi istifadə oluna bilər.

Qeyd edilib ki, söz azadlığı və gender bərabərliyi qırılmaz tellərlə bağlıdır. Gender bərabərliyi təmin olunmadan insan haqlarından, cəmiyyətdə inkişafdan söhbət gedə bilməz. Təsadüfi deyil ki, BMT-nin 2030-cu il üçün Dayanıqlı İnkişaf Məqsədlərində gender bərabərliyi ayrıca məqsəd kimi qeyd edilib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov təlimlərin əhəmiyyətindən danışıb. O deyib ki, Azərbaycanda gender bərabərliyi ilə bağlı zəngin qanunvericilik mövcuddur. Ölkəmiz müvafiq beynəlxalq konvensiyalara qoşulub. Konstitusiyamızda qadın və kişilərin bərabər hüquq və imkanlara malik olması ilə bağlı xüsusi bənd də öz əksini tapıb.

Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin məsul işçisi Vüqar Səlimov da layihənin əhəmiyyətini qeyd edib. O deyib ki, bu tədbir dövlət qurumlarının məsələyə xüsusi diqqətlə yanaşdığını göstərir. Bu və bundan əvvəlki layihələr gender bərabərliyi və media azadlığı sahəsində beynəlxalq təcrübənin Azərbaycan jurnalistləri arasında təbliğ olunması, onların öz fəaliyyətlərində bu dəyərlərin, beynəlxalq standartların tətbiq etməsi baxımından ciddi əhəmiyyət kəsb edir. Bu cür layihələrin həyata keçirilməsi yalnız jurnalist peşəkarlığının artırılması və bu dəyərlərin tətbiqi ilə məhdudlaşmır. Eyni zamanda, gender bərabərliyi və media azadlığı ilə bağlı ictimai fikrin formalaşmasında da mühüm əhəmiyyət daşıyır.

Sonra "Gender bərabərliyi və media sahəsində Avropa Şurasının standartları", "Gender bərabərliyi və media: Azərbaycan qanunvericiliyi və təcrübəsi", "Cinsiyyətçi nifrət nitqi ilə mübarizə", "Gender məsələlərinin mediada işıqlandırılması", "Azərbaycan mediasında gender bərabərliyi: Perspektivlər və çağırışlar" adlı sessiyalar çərçivəsində təlimlər başlayıb.

Qeyd edək ki, yanvarın 23-dən 25-dək davam edəcək təlimlərin məqsədi gənc jurnalistlərə və jurnalistika fakültəsinin tələbələrinə qadın hüquqlarının müdafiəsi, eləcə də təşviq edilməsi istiqamətində ətraflı məlumatların çatdırılmasıdır.

## Georgi Logvinski: AŞPA-nın bir çox üzvləri Azərbaycanın sürətli inkişafını düzgün qiymətləndirə bilmirlər

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) bir çox üzvləri Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra keçdiyi sürətli inkişaf yolunu düzgün qiymətləndirə bilmirlər.

Bu fikri AŞPA-nın üzvü Georgi Logvinski AZƏRTAC-a müsahibəsində bildirib.

Deputat qeyd edib ki, azərbaycanlılar öz ölkələrinin bugünkü uğurları ilə fəxr etməlidirlər. **"Bəzi avropalı həmkarlarımdan xahiş edirəm ki, Azərbaycandakı müsbət dəyişiklikləri, inkişafı görsünlər. Yaxşı olar ki, onlar Avropadakı münaqişələrin, eləcə də Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə düşünsünlər. Çünki münaqişələr bütün qitədə gələcək sülhü və sabitliyi sual altında qoyur",** - deyə o vurğulayıb.



# Ankarada TÜRKPA-nın Ətraf Mühit və Təbii Ehtiyatlar Komissiyasının toplantısı keçirilib



Ankarada Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Ətraf Mühit və Təbii Ehtiyatlar Komissiyasının toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin ev sahibliyi ilə keçirilən "Meşələrin təbii sərvətlərinin qorunması və təbii sərvətlərin ekoloji cəhətdən səmərəli istifadəsi: qanunvericilik və təcrübə" mövzusunda birinci toplantıya TÜRKPA-nın Ətraf Mühit və Təbii Ehtiyatlar Komissiyasının və Azərbaycan Milli Məclisinin səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov sədrlik edib.

Əvvəlcə o, tədbirin mahiyyəti, rəhbərlik etdiyi komissiyanın gördüyü işlərin məqsədi və qarşıda duran vəzifələr barədə məlumat verib. Diqqətə çatdırıb ki, BMT-nin Minilliyin İnkişaf Hədəflərinin əsasında formalaşdırılan və 2015-ci ildə qəbul edilən Davamlı İnkişaf Hədəflərinin siyahısında 17 hədəf müəyyənləşdirilib. Bu sıralamada 15-ci hədəf yerüstü ekosistemlərin qorunması, bərpası və davamlı istifadəsi, meşələrin davamlı idarə edilməsi, səhralaşmaya qarşı mübarizə, torpaqların deqradasiyası və biomüxtəlifliyə aid zərərlərin dayandırılması məsələlərinə həsr edilib.

Rəsmi açılışda Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Mustafa Şentop, parlamentin ətraf mühit komissiyasının sədri Muhammet Balta, TÜRKPA-nın baş katibi Altınbek Mamayusupov və qurumun Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının sədri İsmət Uçma çıxış ediblər.

Çıxışlarda Türkdilli Ölkələrin Parlament Assambleyasının fəaliyyəti yüksək dəyərləndirilib, qurumun Ətraf Mühit və Təbii Ehtiyatlar Komissiyasının müzakirəyə çıxardığı məsələlərin beynəlxalq əhəmiyyət daşıdığı qeyd olunub.

"Təbii sərvətlərin ekoloji cəhətdən səmərəli istifadəsi üzrə seminar: qanunvericilik və təcrübə" mövzusunda keçirilən ikinci toplantıya Ətraf Mühit və Təbii Ehtiyatlar Komissiyasının sədr müavini Rəcəb Şəkər başçılıq edib.

Hər iki toplantıda Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan tərəflərinin təqdimatları olub.

Təqdimatçılar təbiətin ağ ciyəri hesab olunan meşə örtüyünün həcmi və əhəmiyyəti, bu sahədəki mövcud problemlər, meşələri əhatə edən risklərin yaratdığı təhlükələr barədə danışıblar. Eyni zamanda, meşələrin idarə olunması qaydaları, onların növləri, qorunması istiqamətində həyata keçirilən tədbirlər, eləcə də meşələr üçün tinglərin hazırlanması və əkilməsi məsələləri barədə məlumat verilib.

Toplantı yekun sənədin qəbul olunması ilə başa çatıb.

Sonra TÜRKPA nümayəndə heyəti Ankaradakı Toxum Geni Bankı və Təbiət Tarixi Muzeyi ilə tanışlıq olub.

Yanvarın 24-də TÜRKPA nümayəndə heyəti Türkiyənin Kənd Təsərrüfatı və Meşə Nazirliyində görüş keçirəcək, "Soğuksu" Milli Parkında olacaq.

# Vüqar Rəhimzadə: Azərbaycana beynəlxalq səviyyədə verilən dəyər uğurlu daxili və xarici siyasətin nəticəsidir



Bu gün beynəlxalq aləmdə qitələri birləşdirən, regiona və dünyaya sülh və təhlükəsizlik vəd edən layihələrin təşəbbüskarı kimi tanınan Azərbaycan yeni, tamamilə fərqli inkişaf modeli yaradıb. Həyata keçirilən mühüm islahatlar, çevik idarəetmə mexanizminin yaradılması istiqamətində görülən işlər bu inkişaf modelinin əsas elementlərini təşkil edir. Azərbaycan Avropa ölkələri, eyni zamanda, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməkdədir. Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrəyə işgüzar səfərini bu baxımdan xüsusi vurğulamaq lazımdır. Hesab edirəm ki, Forum hər il istər iştirakçı ölkələr, istərsə də Azərbaycan üçün kifayət qədər məhsuldar keçir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, səfər çərçivəsində ilk olaraq Azərbaycan Prezidentinin Davosda Dünya İqtisadi Forumunun prezidenti ilə görüşü qurumla ölkəmiz arasındakı münasibətlərin yüksək səviyyədə olmasından xəbər verir. Görüşdə Prezident xüsusi olaraq vurğulayıb ki, Forum dünyada gedən transformasiya prosesinin yeni təmayülləri və çağırışların müzakirəsi baxımından əhəmiyyətlidir. Təbii ki, Azərbaycan da öz inkişaf strategiyasını yenilənən beynəlxalq və regional təmayüllər nəzərə alınmaqla qurur. Dünya İqtisadi Forumu da bu amili hər zaman diqqətdə saxlayır. Görüş zamanı Forumun prezidenti Borge Brende də qeyd edib ki, Azərbaycanın qonşu və region dövlətləri ilə iqtisadi əməkdaşlığının və onun güclənən iqtisadiyyatının bölgə ölkələrinin inkişafında rolu böyükdür. Dünya İqtisadi Forumu isə bu rolu yüksək qiymətləndirir. Hesab edirəm ki, Azərbaycana beynəlxalq səviyyədə verilən bu dəyər bir daha ölkə rəhbərliyi tərəfindən uğurlu daxili və xarici siyasətin həyata keçirildiyini sübut edir.

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, Forumda ənənəvi olaraq Azərbaycan Prezidentinin dünyanın nüfuzlu şirkətlərinin rəhbərləri ilə görüşü, aparılan müzakirələr yeni əməkdaşlıqlar üçün imkanlar açır. Bu gün Azərbaycan xarici şirkətlər üçün investisiya yatırılması baxımından kifayət qədər cəlbedici ölkədir. Təsadüfi deyil ki, Azərbaycanda bir çox xarici dövlətləri təmsil edən yüzlərlə şirkət fəaliyyət göstərir, bu özəl qurumlar münbit şəraitdən faydalanaraq uzunmüddətli və perspektivli layihələrdə iştirak edirlər. Şübhəsiz ki, dövlətimizin başçısının Forum çərçivəsində BP, "Microsoft", "Total", "LUKoil" və s. şirkətlərin rəhbər şəxsləri, Dünya Bankının baş icraçı direktoru ilə görüşü də mövcud əlaqələrin daha da möhkəmlənməsi, yeni imkanların müzakirəsi baxımından önəmlidir.

Vüqar Rəhimzadənin sözlərinə görə, Forum çərçivəsində keçirilən görüşlər arasında Ermənistanın baş naziri Nikol Paşinyanla qeyri-rəsmi görüşü də vurğulamaq lazımdır. Azərbaycan Prezidenti bütün çıxışlarında, beynəlxalq tribunalarda Dağlıq Qarabağın ölkəmizin ayrılmaz tərkib hissəsi olduğunu, Ermənistanın işğal altında olan torpaqları dərhal azad etməsini bəyan edir. Bu cür qəti mövqe və sərt bəyanatlar atılan uğurlu addımlar sayəsində daha da möhkəmlənir. Bizim mövqeyimiz qəti və dəyişməzdir. Hesab edirəm ki, işğalçı Ermənistan rəhbərliyi də artıq bunu görür və torpaqları azad etməkdən başqa çıxış yolu qalmadığını dərk edib. Bu mənada Azərbaycan Prezidentinin Ermənistanın baş naziri Nikol Paşinyanla qeyri-rəsmi görüşü, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair aparılan danışıqlar üçün müsbət meyillərin olduğunu göstərir və gələcəyə nikbin baxmağa əsas verir.

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, Prezident İlham Əliyevin Davosda "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" adlı sessiyada iştirakı və ölkəmizin sürətli inkişafı ilə bağlı səsləndirdiyi faktlar bir daha Forum iştirakçılarında Azərbaycanla bağlı daha dəqiq, dolğun məlumatların formalaşmasına öz müsbət təsirini göstərir.

# Bəhruz Quliyev: Davos Forumu çərçivəsində keçirilən görüşlər Azərbaycanın dünya ölkələri üçün dinamizm və dayanıqlılıq nümunəsinə çevrildiyini göstərir

Azərbaycan bu gün dünyanın siyasi və iqtisadi elitalarının diqqət mərkəzindədir. Bunu "Trend"ə açıqlamasında "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.



O qeyd edib ki, hər il olduğu kimi, bu il də Prezident İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak edir, burada dünyanın tanınmış siyasi və iqtisadi elitalarının nümayəndələri ilə görüşlər keçirir və Azərbaycanın əməkdaşlığa hazır olduğunu nümayiş etdirir: **"Dövlətimizin başçısı Davosa səfəri çərçivəsində müxtəlif görüşlər keçirib, sessiyalarda iştirak edir. Prezident İlham Əliyevin Davosda çoxsaylı səmərəli görüşlər keçirməsi Azərbaycana olan maraqdan irəli gəlir. Forum çərçivəsində aparılan müzakirələrin nəticələri bir daha Azərbaycanın uğurlarını və inkişafını isbatlayır. Azərbaycan Davosda keçirilən Dünya İqtisadi Forumunda ən yüksək səviyyədə təmsil olunur. Azərbaycan həm siyasi, həm də iqtisadi baxımından riskli ölkə deyil, eyni zamanda, investisiya yatırılması üçün əlverişli şəraitə malikdir".**

Siyasi ekspert bildirib ki, Davos Forumu çərçivəsində keçirilən bütün görüşlər, səsləndirilən fikirlər dünyanın siyasi və iqtisadi elitalarının dövlətimizə marağını ortaya qoyur və bu fakt bir daha son dövrlər ərzində sürətlə inkişaf edən Azərbaycanın dünya ölkələri üçün dinamizm və dayanıqlılıq nümunəsinə çevrilməsini sübuta yetirir: **"Budəfəki Davos Forumu bir çox cəhətdən - həm qlobal, həm də regional müstəvidə, eyni zamanda, Azərbaycan maraqları baxımından ciddi müzakirələr və qərarlarla tarixə düşür. Forumda Azərbaycanın dünya iqtisadiyyatının ən sürətli inkişaf edən tərkib hissəsi kimi təqdim edilməsi və nümunə göstərilməsi aktuallıq kəsb etdi. Bu da onu göstərir ki, hazırda Azərbaycan dünyada ciddi bir dövlət kimi qəbul edilməkdədir".**

# Prezident Sauli Niinistö: Dağlıq Qarabağ münaqişəsinin həllində müsbət addımlar atılacağına ümidlər çoxdur



Minsk qrupunun hazırkı prosesini dəstəkləyirəm. İndiki vəziyyət daha optimistdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində müsbət addımlar atılacağına ümidlər çoxdur.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Finlandiyanın Prezidenti Sauli Niinistö AŞPA-da azərbaycanlı deputat Rafael Hüseynovun sualına cavabında söyləyib.

Finlandiya Prezidenti AŞPA-da ölkəsinin quruma sədrliyi dövründə nəzərdə tutulan prioritetlərdən danışandan sonra parlamentarilərin suallarını cavablandırıb.

Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov Prezident Sauli Niinistöyə iki sualla müraciət edib. Birinci sual Azərbaycan və Finlandiya arasında inkişaf etməkdə olan iqtisadi münasibətlərlə bağlı olub. Deputat bu əlaqələrin ümumi mənzərəsini cızaraq, iki ölkənin iqtisadi əlaqələrini daha əhatəli edəcək hansı imkanların olmasını soruşub: **"Finlandiya ilə Azərbaycan arasında qarşılıqlı faydalı olan iqtisadi münasibətlər ardıcıl şəkildə inkişaf edir. Azərbaycan ilə Finlandiya arasında ticarət dövriyyəsi durmadan artır. Bu gün Azərbaycanda sənaye, ticarət, xidmət və tikinti sahələrində Finlandiyanın 13 şirkəti qeydiyyatdan keçib. Ölkənizin xarici ticarət və inkişaf nazirinin Bakıya 2018-ci ildəki səfərindən sonra bu əlaqələrin inkişafı baxımından hər hansı yeni mühüm perspektivlər müəyyənləşdirilibmi?".**

Finlandiya Prezidenti bu sualın cavabında bildirib ki, iki ölkə arasında iqtisadi əlaqələrin həqiqətən yaxşı perspektivləri var. Sizin mənə bu barədə fikirlərimi bölüşmək imkanı yaratmağınız yəqin ki, Azərbaycanla iqtisadi əlaqələr quran və bu niyyətdə olan fin şirkətlərini və müəssisələrini sevindirəcək. Belə şirkətlər və müəssisələr bizdə çoxdur. Biz urbanizasiya dövründə yaşayırıq. Bunun müsbət tərəfləri olduğu kimi, təbii ki, yaratdığı problemlər də var. Bu istiqamətdə fəaliyyət göstərən, məhz urbanizasiyadan doğan problemlərin həlli sahəsində xidmət göstərən müəssisələrimiz var. Onlar yalnız ölkəmizdə deyil, iqtisadi əlaqələr qurduğumuz ölkələrdə də eyni məsələlərin həlli ilə məşğul olmaqda maraqlıdırlar. Məsələn, su təmizlənməsi, yol çəkilişi və bu qəbil sahələr üzrə işləyən müəssisələrin əməkdaşlıq imkanları genişdir. Perspektivlər çoxdur. İndiyədək etdiklərimizdən daha çox iş görməliyik.

İkinci sual, Azərbaycan üçün xüsusi önəm daşıyan Ermənistanın Azərbaycana təcavüzü, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı idi. Azərbaycan nümayəndə heyətinin üzvləri, adətən, hər münasib imkandan istifadə edərək bu mövzunun gündəmə gətirilməsinə cəhd edirlər və Finlandiyanın ATƏT-in Minsk qrupuna üzv ölkələrdən olması indi növbəti dəfə bu məsələdən bəhs etməyə imkan yaradırdı.

Rafael Hüseynov Prezident Sauli Niinistöyə belə sualla müraciət etdi: **"Hələ 1992-ci ildə ATƏT-in Minsk qrupunda həmsədrlik institutu təsis edilərkən Dağlıq Qarabağ probleminin həlli məsələsində Finlandiya həmsədrlərdən biri seçilmişdi. Siz bu gün də Minsk qrupunda varsınız və Ermənistanın Azərbaycana təcavüzü, Dağlıq Qarabağ münaqişəsi də həllini tapmadan qalır. Bir münasib tərəfdaş kimi getdikcə daha sıx iqtisadi, mədəni əlaqələr qurduğunuz Azərbaycanın bu ümdə probleminin həll istiqamətində hansı yeni səylərinizi gözləyə bilərik?".**

Finlandiya Prezidenti bəyan edib ki, hərbi münaqişələrin, qaçqınlar probleminin və bunlardan törəyən digər fəsadların aradan qaldırılmasında, əslində, hamımız maraqlıyıq. Çünki bunun bu və ya digər dərəcədə hamıya təsiri var. Azərbaycanın problemi də bizə yaxşı tanışdır, bu münaqişənin tezliklə sülh yolu ilə, diplomatik vasitələrlə həllində maraqlıyıq və Minsk qrupu çərçivəsində buna istənilən dəstəyi göstərməyə hazırıq. Son dövrdəki müşahidələrimiz, danışıqlar prosesi optimizmdən xəbər verir. Ümid var ki, Azərbaycan və Ermənistanın maraqlarına optimal cavab verən qərarlar qəbul ediləcək.

# Qaradağ rayonunun Ümid qəsəbəsinə köçürüləcək məcburi köçkün ailələri arasında püşkatma keçirilib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məcburi köçkünlərin sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilir. Zəruri infrastrukturu olan yaşayış kompleksləri, qəsəbələr tikilib istifadəyə verilir, hər il minlərlə köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin edilir. Birinci vitse-prezident xanım Mehriban Əliyeva Bakı və Sumqayıt şəhərlərində hələ də ağır vəziyyətdə, qəzalı və yararsız binalarda yaşayan məcburi köçkünlərin yeni mənzillərə birinci növbədə köçürülməsi məsələsini nəzarətdə saxlayır, bu barədə verilmiş tapşırıqlar davamlı şəkildə icra olunur.





Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuş Dövlət Proqramına 2011-ci il 21 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Əlavələrin müvafiq bəndinə əsasən, Qaradağ rayonunun Ümid qəsəbəsində ikinci mərhələ üzrə 300 ailə üçün inşa olunmuş beş mərtəbəli 4 binadakı mənzillər də ağır şəraitdə yaşayan məcburi köçkünlərə veriləcək.

Ötən il rayonun Lökbatan qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə korporativ sosial məsuliyyət tədbirləri çərçivəsində yerli sahibkarlıq subyektlərinin vəsaiti hesabına inşa edilmiş "Qobu Park" yaşayış kompleksinə, əsasən, Bakıda ən ağır şəraitdə yaşayan məcburi köçkün ailələri köçürülüblər. Hazırda həmin ərazidə "Qobu Park-2" yaşayış kompleksinin inşası davam etdirilir. Ötən ilin sonunda Abşeron rayonunda və Sumqayıt şəhərində istifadəyə verilmiş yeni yaşayış komplekslərindəki mənzillərə də köçürülmə eyni qaydada, ədalət və şəffaflıq şəraitində aparılacaq.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, yanvarın 23-də Ümid qəsəbəsində yeni mənzillərə köçürüləcək məcburi köçkün ailələri arasında püşkatma keçirilib.

Lökbatan Mədəniyyət Sarayında təşkil edilmiş püşkatmada Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində yaradılmış komissiyanın üzvləri, Qaradağ Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, əraziləri işğal olunmuş rayonların icra hakimiyyətlərinin və məcburi köçkün icmalarının nümayəndələri iştirak ediblər.

Mərasimdə məcburi köçkünlərə göstərilən dövlət qayğısından, onların yaşayış şəraitinin, maddi rifahının yaxşılaşdırılması üçün görülən işlərdən, o cümlədən Ümid qəsəbəsində yaradılmış şəraitdən söhbət açılıb, həmçinin püşkatmanın məqsədi və şərtləri barədə məlumat verilib.

Qaradağ rayon ərazisindəki 9 obyektdə müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinin başçıları növbə ilə püşk çəkərək, qəsəbədə əvvəlcədən ayrılmış otaq sayı üzrə, hansı binada və neçənci mənzildə yaşayacaqlarını müəyyənləşdiriblər.

Zəruri infrastrukturla təchiz edilmiş, tam təmirli yeni mənzillərə köçürüldükləri üçün hədsiz sevinc hissi keçirən məcburi köçkünlər onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Xatırladaq ki, Ümid qəsəbəsinin əsası qaçqın və məcburi köçkünlər üçün 1999-cu ildə tikilmiş 110 fərdi yaşayış evinin istifadəyə verilməsi ilə qoyulub. Dövlət Proqramına uyğun olaraq, 2014-cü ildə qəsəbədə birinci mərhələdə 200 məcburi köçkün ailəsi üçün beş mərtəbəli 3 bina, 220 şagird yerlik məktəb tikilib istifadəyə verilib. İkinci mərhələdə isə ərazidə yaşayış binalarından əlavə, həmçinin bir ədəd 140 uşaq yerlik bağça, inzibati bina, tibb məntəqəsi, klub-icma mərkəzi və qazanxana inşa edilib.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın regionlarında yol infrastrukturunun yenilənməsi istiqamətində tədbirlər müvəffəqiyyətlə davam etdirilir

## *Bölgələrdə avtomobil yollarının tikintisi və yenidən qurulması ilə bağlı ardıcıl və məqsədyönlü işlər həyata keçirilir*






Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bütün sahələrdə möhtəşəm nailiyyətlər qazanılmasını təmin edir. Ölkəmizdə infrastruktur quruculuğu da geniş vüsət alıb, bu istiqamətdə səmərəli tədbirlər həyata keçirilib, mühüm nəticələr əldə olunub. Bu baxımdan, yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı irimiqyaslı layihələrin uğurla icra olunması da böyük əhəmiyyətə malikdir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində ölkə miqyasında bəhs olunan istiqamətlərdə qarşıya qoyulan vəzifələr də müvəffəqiyyətlə icra edilib.

Qeyd etmək lazımdır ki, yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə əlaqədar tədbirlər davamlı xarakter daşıyır. 2018-ci ildə ölkəmizdə 2 min kilometr avtomobil yolu salınıb və bu, rekord göstərici olaraq dəyərləndirilir. Ötən il bütövlükdə 920 kəndin yol infrastrukturu yaxşılaşıb, yeni yollar salınıb. Bu yaşayış məntəqələrində 2,2 milyon insan yaşayır. Ümumiyyətlə, 2004-cü ildən bu günə qədər 15 min kilometr avtomobil yolunun salınması infrastruktur quruculuğu istiqamətində görülən ardıcıl və məqsədyönlü tədbirlərin real nəticəsini əks etdirir. Təsadüfi deyil ki, ölkəmiz Davos Forumunun hesablamalarında yol infrastrukturunun keyfiyyətinə görə dünyada 34-cü yerdə qərarlaşıb. Azərbaycan bu göstərici ilə inkişaf etmiş bir çox ölkələri də geridə qoyub və şübhəsiz ki, bu proses davamlı xarakter daşıyır.

Yeri gəlmişkən, Prezident İlham Əliyev yanvarın 4-də "Beyləqan rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (137 km)-Beyləqan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. İyirmi altı min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (137 km)-Beyləqan avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 14,6 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Dövlətimizin başçısı yanvarın 7-də isə "Quba rayonunun Susay-Xınalıq avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Səkkiz min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Susay-Xınalıq avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 13 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Bundan başqa, Prezident İlham Əliyev yanvarın 8-də "Balakən rayonunun Balakən-Qazbinə-İtitala avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. On səkkiz min nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirən Balakən-Qazbinə-İtitala avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,4 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Yanvarın 9-da isə Prezident İlham Əliyev "Zərdab rayonunun Zərdab-Qaravəlli avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Yeddi min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Zərdab-Qaravəlli avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,9 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Ağstafa rayonunda Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun yenidən qurulmasına başlanılıb. 4-cü texniki dərəcəyə uyğun olaraq yenidən qurulan yolun uzunluğu 9,3 kilometr təşkil edir. Layihə üzrə yolun deformasiyaya uğramış hissələri qazılaraq çıxarılır, təqribən 22 min kubmetr həcmdə karxana qruntu ilə əks-dolğu işləri görülərək kipləşdirilir. Məlumata əsasən, yolboyu mövcud suötürücü borular istismara yaramadığı üçün yeni suötürücü boruların quraşdırılması, küvetlərin açılması tələb olunur. Məhz bu səbəbdən 11 ədəd 300 millimetrlik, 2 ədəd isə istismara yaramayan 1000 millimetrlik suötürücü borunun çıxarılması, əvəzinə 132 poqonmetr uzunluğuna malik diametri 500 millimetrlik olan və 42 poqonmetr uzunluğunda diametri 1000 millimetrlik dəmir-beton boruların quraşdırılması, həmçinin boru başlıqlarının dəmir-betonla tikintisi layihədə nəzərdə tutulub. Bundan başqa, avtoqreyderlə 6500 poqonmetr küvetlərin açılması işləri də aparılacaq. İşlərin sonuncu mərhələsində yolboyu 3 avtobus dayanacağı inşa ediləcək, hərəkətin normal təşkili üçün 46 yol nişanı, 18 kilometr göstəricisi və 380 siqnal dirəyi quraşdırılacaq, 28 kilometr uzunluğunda yol-cizgi və yolgöstərici xətlər çəkiləcək. Avtomobil yolunun yenidən qurulması ilə yolboyu nəqliyyat əlaqəsi xeyli rahatlaşacaq, vətəndaşların istər Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yoluna, istərsə də Ağstafa-Poylu-Gürcüstan ilə dövlət sərhədi avtomobil yoluna rahat çıxışına imkan yaranacaq.

Prezident İlham Əliyevin tapşırıq və sərəncamlarına uyğun olaraq ölkəmizdə yol infrastrukturunun yenilənməsi istiqamətində aparılan işlər respublika əhəmiyyətli yolları da əhatə edir. Bu yollardan biri Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yenidən qurulan Tərtər-Hindarx avtomobil yoludur. Layihə üzrə işlər artıq yekunlaşmaq üzrədir. III texniki dərəcəli Tərtər-Hindarx avtomobil yolunun 26 kilometrlik hissəsində asfalt-beton örtüyündə aşınmalar, çatlar və bəzi hissələrdə çökmələr əmələ gəldiyindən yolun yenidən qurulmasına ehtiyac var idi. Yolun yenidən qurulması işləri çərçivəsində mövcud asfalt-beton örtük frez maşını ilə profilə salınıb, yolun deformasiyaya uğramış hissələri qazılaraq çıxarılıb. Əvəzinə qum-qırmadaş qarışığından alt layın, optimal-çınqıl qarışığından isə üst layın təmiri işləri görülüb. Çiyin hissələr 80 min kvadratmetr sahədə optimal-çınqıl materialı ilə bərkidilib. Layihəyə uyğun olaraq, yol boyu diametri 500 və 700 millimetr olan 290 poqonmetr metal, diametri 1000 və 1200 millimetr olan 152 poqonmetr dəmir-beton suötürücü borular quraşdırılıb. Hazırda alt layı 7 santimetr, üst layı isə 5 santimetr olmaqla, 15 santimetr qalınlığında asfalt-beton qarışığından yol örtüyünün salınması işləri sürətlə davam etdirilir. Artıq yolun 8,5 kilometr hissəsində işlər yekunlaşıb. 12 kilometrdə isə alt lay asfalt örtüyün döşənməsi həyata keçirilib. Avtomobil yolunun tikintisinə lazımi sayda işçi və texnika cəlb edilib. Layihə çərçivəsində 12 avtobus dayanacağı inşa olunacaq. Yolboyu hərəkətin normal təşkili üçün nişan və siqnal dirəkləri quraşdırılacaq, yol-cizgi və yolgöstərici xətlər çəkiləcək. Tikintinin qısa vaxtda başa çatdırılması nəzərdə tutulur. Respublika əhəmiyyətli Tərtər-Hindarx avtomobil yolunun 26 kilometrlik hissəsinin yenidən qurulması ilə vətəndaşların Tərtər və Hindarx istiqamətinə gediş-gəlişi asanlaşacaq. Odur ki, avtomobil yolunun yenidən qurulması sakinlərin sevincinə səbəb olub.

Bununla yanaşı, Prezident İlham Əliyevin Sərəncamına müvafiq olaraq 55 kilometrlik Lənkəran-Lerik avtomobil yolunda əsaslı təmir işləri aparılır. Avtomobil yolunda sürüşmənin aktiv olduğu yerlərdə bərkitmə işlərinə başlanılıb. Sürüşmə aktivliyinin daha çox müşahidə edildiyi yerlərdə uzunluğu 100-150 metr, hündürlüyü 4, bəzi yerlərdə isə 5 metrə çatan beton istinad divarları tikilir, bardürlər düzülür. Ərazidə, həmçinin suötürücü qurğular, rabitə xətləri, işıq dirəkləri, elektrik və qaz xətləri də yenilənəcək. Əsaslı təmir olunan yolun eni 10 metr nəzərdə tutulub, bunun 7 metrini asfalt-beton örtüyü təşkil edəcək. Təmir işlərinə 70-ə yaxın işçi qüvvəsi və 60-dək ağır texnika cəlb olunub. Lənkəran-Lerik avtomobil yolunun asfaltlanması işlərinin yay aylarında başa çatdırılması nəzərdə tutulub. Lerik rayonu ölkəmizin cənub bölgəsinin turizm rayonlarından olduğu üçün yol infrastrukturunun müasir standartlar səviyyəsində qurulması yerli sakinlərlə yanaşı, bura gələn həm yerli, həm də xarici turistlərin də rahatlığına xidmət edəcək.

Quba rayonunda isə 68 min nəfər əhalinin yaşadığı 66 yaşayış məntəqəsini birləşdirən Quba-Qonaqkənd avtomobil yolunun tikintisi davam etdirilir. Uzunluğu 46 kilometr olan yolun 40 kilometrinə artıq asfalt döşənib. Hazırda tikinti işləri yolun Qonaqkənd qəsəbəsi yaxınlığındakı son 6 kilometrlik hissəsində həyata keçirilir. Təmir-bərpa işləri zamanı yol əsasının yararsız qruntu qazılaraq çıxarılır. Daha sonra qazılmış hissəyə karbonat materialı tökülərək kipləşdirilir. Bundan sonra 13-14 metr enində yeni yol yatağı salınır. Yol kənarlarında 3-3,5 metr enində yeni çiyinlər tikilir. İki hərəkət zolaqlı yolun hərəkət hissəsinin eni 7 metr təşkil edir. Yolun çəkilməsi ilə paralel olaraq 3 körpünün tikintisi də həyata keçirilir. Bunlardan ən böyüyü Vəlvələçay çayı üzərində tikilir. Çayqovuşan adlanan ərazidə inşa olunan körpünün uzunluğu 350 metrdir. Yolboyu zəruri yerlərdə kommunikasiya xətləri yenilənməklə yanaşı, mövcud su boruları və su keçidləri bərpa olunur, giriş-çıxış hissələri təmizlənir, lazımi yerlərdə yeni su boruları tikilir. Amsar, Nügədi, Püstəqasım, Qam-qam, Təngəaltı və başqa yaşayış məntəqələrindən keçən yolun yenidən qurulması əhalinin gediş-gəlişini asanlaşdırmaqla yanaşı, həm də onların tədarük etdikləri kənd təsərrüfatı məhsullarını və meyvə-tərəvəzi qısa vaxtda istədikləri ünvanlara çatdırmağa imkan yaradacaq. Yolun tikintisi Qubada turizmin inkişafına da təkan verəcək.

Bütövlükdə, Azərbaycanın regionlarında yol infrastrukturunun yenilənməsi istiqamətində tədbirlər uğurla davam etdirilir. Başqa sözlə, bölgələrdə avtomobil yollarının tikintisi və yenidən qurulması ilə bağlı ardıcıl və məqsədyönlü işlər həyata keçirilir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Ətraf Mühitin Mühafizəsi Departamentində həyata keçirilmiş auditin nəticələri açıqlanıb



Hesablama Palatasının kollegiyası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentinə dövlət büdcəsindən ayrılan xərclərin və "Ətraf Mühitin Mühafizəsi üzrə Dövlət Fondu"nun daxilolmalarının və xərclərinin icrasına dair auditinin nəticələri üzrə auditor hesabatını müzakirə edərək təsdiqləyib.

Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, audit Ətraf Mühitin Mühafizəsi Departamentində və seçmə qaydada tabeli idarələrində, fondun vəsaitinin xərclənməsi üzrə nazirliyin aparatında həyata keçirilib və ümumilikdə 17 milyon 82,6 min manat məbləğində vəsaiti əhatə edib. Fondun gəlir və xərclər smetası tərtib edilərkən mədaxil mənbələri ayrı-ayrılıqda proqnozlaşdırılmayıb, əvvəlki illərdən istifadə olunmamış qalıq vəsaitlər gəlir və xərclər smetasının gəlirlər hissəsində öz əksini tapmayıb, müvafiq qanunvericilikdə müəssisələr (istehsalatlar) tərəfindən təbii ehtiyatlardan istifadənin və ətraf mühitə təsir edən tullantıların həcmini özündə əks etdirən hesabatların tam alınması təmin olunmayıb, respublika ərazisində fəaliyyət göstərən müəssisələrin yalnız müəyyən hissəsinə təbii ehtiyatlardan istifadəyə görə haqq və çirkləndirici maddələrin ətraf mühitə atılmasına görə ödəmə üzrə bildiriş göndərilib, eləcə də 2017-ci ildə Bakıda yalnız sənaye sahəsi üzrə fəaliyyət göstərən müəssisələrin sayı paytaxt ərazisində bütün sahələrdə fəaliyyət göstərən bildiriş göndərilmiş müəssisələrin sayından çox olub və ətraf mühiti əhəmiyyətli dərəcədə çirkləndirmə ehtimallı müəssisələrin yalnız bir qismi tərəfindən hesabat verilib.

Mövcud resursların fonda toplanılmasında təbii sərvətlərdən istifadəyə görə haqq və çirkləndirici maddələrin ətraf mühitə atılmasına görə ödəmə üzrə subyektlərin (ödəyicilərin) məlumat sistemi (bazası) formalaşdırılmayıb, eləcə də müəssisələr (istehsalatlar) üzrə texnoloji proseslərə uyğun ekoloji normaların yol verilə bilən həddini özündə əks etdirən ekoloji pasportların alınmasına və ekoloji pasportlarda göstərilən yol verilə bilən həddə riayət olunmasına tam nəzarət edilməyib, bu sahədə nazirliyin müxtəlif idarələri üzrə fəaliyyət tam koordinasiya olunmuş formada təşkil edilməyib, ödənişi gecikdirilən haqq və ödəmələrə cərimələr hesablanmayıb və həmin ödəmələri verməli olan subyektlərdən ödənişi gecikdirilmiş məbləğlərin alınması üzrə zəruri tədbirlər görülməyib, ətraf mühitin mühafizəsi sahəsində nəzarətin həyata keçirilməsi üçün yaşıllıqların kadastrı və uçotu üzrə məlumat sistemi mövcud olmayıb, bu sahədə müvafiq qurumlarla əlaqəli fəaliyyət formalaşdırılmayıb.

Ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyin tələblərinin pozulması üzrə cərimələr tətbiq edilərkən faktiki vəziyyət bir sıra hallarda tam araşdırılmadan protokollar tərtib edilərək qərarlar çıxarılsa da, cərimələr düzgün tətbiq olunmayıb, bəzi hallarda cərimə məbləğinin azaldılması üçün cərimə hüquqi şəxsin əvəzinə fiziki şəxsə tətbiq edilib, 8 halda hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərə fiziki şəxs kimi cərimə hesablanıb, bəzi hallarda ekoloji ekspertiza rəyi almadan yaşıllıq ərazisi kimi nəzərdə tutulmuş torpaq sahəsində avtomobillərə texniki xidmət və ticarət binasının tikintisi işlərinin aparılması faktına görə fiziki şəxsə cərimə az tətbiq edilib.

Fondun daxilolmalarına görə borcların subyektlər (ödəyicilər) üzrə adlı siyahısının uçotu aparılmayıb və müvafiq hesabatlarda əks etdirilməyib, borclu fiziki və hüquqi şəxslərlə hesabat dövrlərinin sonuna borcları təsdiq edən üzləşmə aparılmayıb və borcların tam alınması (yığılması) təmin olunmayaraq artıb.

Departament üzrə konsolidə olunmuş maliyyə hesabatları tərtib olunmayıb, fonda daxilolmalar üzrə ötən il yanvarın 1-nə hesabatlarda əks olunmuş borc təsnifləşdirilməyib, fondun xərcləri üzrə maliyyə hesabatları ilə büdcə hesabatları arasında uyğunsuzluq mövcud olub.

Hesablama Palatasının kollegiyası qərar qəbul edərək Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentində və fondun vəsaitlərinin xərclənməsində yol verilmiş nöqsanların aradan qaldırılması, o cümlədən iqtisadiyyatın müxtəlif sahələri üzrə müəssisələr (istehsalatlar) tərəfindən texnoloji proseslərə uyğun fəaliyyət üzrə ekoloji normaları özündə əks etdirən ekoloji pasportların tərtibinin və departament tərəfindən təsdiqinin, ekoloji pasportlarda göstərilən ətraf mühitə təsirə dair ekoloji normaların yol verilə bilən həddinə riayət olunmasının, ətraf mühitə təsirə dair uçotun tam aparılmasının, təbii ehtiyatlardan istifadəyə görə haqq və çirkləndirici maddələrin ətraf mühitə atılmasına görə ödəmə üzrə subyektlərin (ödəyicilərin) əhatə dairəsinin dəqiq müəyyən olunmasının və müvafiq ödəmələrin hesablanılaraq tam məbləğdə "Ətraf Mühitin Mühafizəsi üzrə Dövlət Fondu"na köçürülməsi üçün zəruri tədbirlərin görülməsinin ciddi nəzarətdə saxlanılması, Nazirlər Kabinetinin 1992-ci il 3 mart tarixli Qərarı ilə təsdiq edilmiş təbii ehtiyatlardan istifadəyə görə haqqın məbləğinin, ödəmə tətbiq edilən çirkləndirici maddələrin siyahısının və ödəmə normativlərinin məbləğinin təkmilləşdirilməsinin məqsədəuyğunluğuna baxılması, eləcə də nöqsanlara yol vermiş vəzifəli şəxslər üzrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada zəruri tədbirlərin görülməsi məqsədilə qərarın və qərarla təsdiq edilmiş auditor hesabatının surəti nazirliyə və departamentə göndərilib.

Auditin nəticələri ilə bağlı Milli Məclisə məlumat verilib.

# "Nar" autizm sindromlu uşaqlara növbəti dəstəyini göstərib

"Nar" özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində "autizm spektr pozuntuları" diaqnozlu uşaqlara növbəti dəfə dəstəyini göstərib. Belə ki, "Nar" autizm "spektr pozuntuları" diaqnozlu uşaqlarla işləyən "Birgə və Sağlam" İctimai Birliyini yüksəksürətli simsiz internet ilə təmin edib. "Nar"-ın təqdim etdiyi yüksəksürətli limitsiz internet sayəsində autizm sindromlu uşaqlar cəmiyyətə inteqrasiya olunmaları üçün lazım olan proqramlardan və dərs vəsaitlərindən yararlana biləcəklər. Bundan başqa, "Nar" şəbəkəsi vasitəsilə "Birgə və Sağlam" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən "Kashalata" kafedə çalışan yeniyetmə autizmli uşaqlar kompüter və İT bacarıqlarını inkişaf etdirəcəklər və müxtəlif peşələrə yiyələnmələri üçün internetdən rahatlıqla istifadə edə biləcəklər.

"Nar" bundan əvvəl də birliyin autizm simdromlu uşaqlarına öz dəstəyini göstərib və onların çalışdığı "Kashalata" kafe-atelyeni zəruri olan avadanlıqla təmin edib. Qeyd edək ki, autizm sindromlu uşaqların cəmiyyətə inteqrasiyasına dəstək olmaq və onların sosial bacarıqlarını artırmaq məqsədilə "Kashalata" kafedə autizmli yeniyetmə uşaqlar çalışır və müştərilərə özləri xidmət göstərir. "Birgə və Sağlam" İctimai Birliyinin reabilitasiya mərkəzi 70-dən artıq xüsusi qayğıya ehtiyacı olan autizm sindromlu uşaqlara təhsil xidməti verir.

nar
BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ
"Nar" "Birgə və Sağlam" İB-yə rabitə dəstəyi göstərir

Qeyd edək ki, "Nar" xüsusi qayğıya ehtiyacı olan insanları daim diqqətdə saxlayır və onların cəmiyyətə inteqrasiya olunması istiqamətində müxtəlif addımlar atır. Mobil operatorun həyata keçirdiyi KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az saytından öyrənmək olar.

# Azercell növbəti dəfə olimpiadaçı şagirdlərə dəstək oldu



Ötən il təhsil sahəsində beynəlxalq olimpiadalarda yüksək göstəricilərə imza atan məktəblilərimiz bu ilə də uğurla başlayıblar. Belə ki, Qazaxıstanın Almatı şəhərində fizika, riyaziyyat və informatika fənləri üzrə keçirilən 15-ci Beynəlxalq Jautıkov Olimpiadasında Azərbaycan məktəbliləri böyük nailiyyətlər əldə ediblər. Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 10-cu sinif şagirdləri Abutalıb Namazov, Murad Eynizadə informatika fənni üzrə gümüş, həmin liseyin 11-ci sinif şagirdi Ramil Cəbiyev və 10-cu sinif şagirdi Murad Ağazadə riyaziyyat fənni üzrə gümüş, 11-ci sinif şagirdi Murad Ağayev isə bürünc medal qazanıblar. Beləliklə, Azərbaycan məktəbliləri bu olimpiadada 4-ü gümüş və 1-i bürünc olmaqla ümumilikdə 5 medal əldə ediblər.

Məktəblilərimizin uğurunda təhsil sahəsində həyata keçirdiyi və dəstək verdiyi sosial layihələr ilə hər zaman öndə olan "Azercell Telekom" MMC-nin də rolu var. Belə ki, informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi "Azercell Telecom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində həyata keçirilir. Hazırlıq prosesində şagirdlərin olimpiadalara hazırlıq prosesinin stimullaşdırılması, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, elmi potensialının nümayiş etdirilməsi üçün mərkəz tərəfindən hərtərəfli şərait yaradılıb. Məlumat üçün bildirək ki, "Azercell Telekom" MMC ötən il Yaponiyanın elm və texnologiya mərkəzlərindən biri olan Tsukuba şəhərində keçirilən Beynəlxalq İnformatika Olimpiadasında və eləcə də Gürcüstanın paytaxtı Tbilisidə keçirilən məktəblilərin İnformatika fənni üzrə Beynəlxalq Komanda Olimpiadasında da şagirdlərimizə dəstək olub.

**İTMİŞDİR**

Azərbaycan Dövlət İqtisad Universiteti Əmtəəşünaslıq fakültəsinin II kurs tələbəsi Məmmədzadə Almurad Adilxan oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU